# 525-ci qəzet

20 iyul 2012-ci il, cümə №128 (3684). Qiymәti 20 qәpik

www.525.az


## "Türkiyə Qarabağ danışıqlarına daha yaxından cəlb olunmalıdır"

### ATƏT PA-NIN PREZİDENTİ RİKARDO MİQLİORİ AZƏRBAYCAN VƏ ERMƏNİSTANIN PARLAMENT SƏDRLƏRİNİ BİRBAŞA DİALOQ APARMAĞA DƏVƏT EDƏCƏK

"Mən qəti inanıram ki, parlament səviyyəsində daimi dialoqun qurulması Dağlıq Qarabağ probleminin həllinə töhfə verə bilər. Bu səbəblə mən hər iki ölkə parlamentlərinin sədrlərini ATƏT Parlament Assambleyasının qarşıdakı toplantılarından birinə qatılaraq bunu birbaşa müzakirə platforması kimi istifadə etməyə dəvət etmək niyyətindəyəm". APA-nın xəbərinə görə, bunu Ermənistan mətbuatına açıqlamasında ATƏT PA-nın yeni prezidenti Rikardo Miqliori deyib. O bildirib ki, ATƏT hərtərəfli təhlükəsizlik konsepsiyası və əhatəli üzvlük sistemi ilə münaqişələrin həllinə kömək etmək üçün ən yaxşı beynəlxalq forumdur: "ATƏT Parlament Assambleyasının sədri kimi danışıqlar prosesinə, o cümlədən Minsk Qrupuna dəstək üçün məndən asılı olan nə varsa edəcəyəm". R. Miqliori qeyd edib ki, Minsk Qrupu tərəflərə münaqişənin həlli yolunu zorla sırıya bilməz, tərəflər özləri razılığa gəlməlidir: "Münaqişənin həlli yolu kompromisdən keçir. Aydındır ki, sülh yolu irəliyə doğru addımlamaq üçün yeganə həyat qabiliyyətli vasitədir".

R. Miqliori 2014-cü ildə ATƏT PA-nın illik sessiyasının Bakıda keçiriləcəyini xatırladaraq bunun parlamentlərin münaqişənin həllində rolunun artmasına kömək edəcəyini söyləyib. Onun fikrincə, Türkiyəni danışıqlar prosesinə daha yaxından cəlb etmək lazımdır ki, onun iştirakının tərəflərin sülh yolunda tərəqqi əldə etməsinə yardımçı olub-olmayacağını görmək mümkün olsun: "Mən bu mərhələdə Minsk Qrupunun formatını dəyişmək istəməzdim. Lakin bununla yanaşı, iqtisadi inkişafa səbəb olacaq açıq sərhədlərlə münaqişənin sülh yolu ilə həllini tapmaq üçün Türkiyə bu prosesin bir hissəsinə çevrilmədir. Türkiyə ilə Ermənistan arasında bir neçə il əvvəl baş vermiş yaxınlaşma müsbət addım idi. Təəssüf ki, ratifikasiya prosesi dayandı".

Dağlıq Qarabağ ermənilərinin üçüncü tərəf kimi danışıqlarda iştirakına gəlincə, ATƏT PA-nın rəhbəri bildirib ki, Minsk Qrupunun formatı artıq mövcuddur və bu situasiyanı dəyişmək yanlış olardı. Lakin o, insanlar arasında təmasların fəallaşdırılmasının vacibliyini qeyd edib.

R. Miqliori gələn il bölgəyə səfər edə biləcəyini də vurğulayıb.

## Avropa İttifaqı Qarabağdakı qanunsuz "seçki"ni tanımır

"İyulun 19-da Dağlıq Qarabağda "prezident seçkiləri" keçiriləcək. Mən qeyd etmək istərdim ki, Avropa İttifaqı seçkilərin keçiriləcəyi konstitusion və hüquqi çərçivələri tanımır. Bu "seçkilər" münaqişənin sülh yolu ilə nizamlanması barədə danışıqların əsas çərçivəsinin gedişində Dağlıq Qarabağın gələcək statusunun müəyyən edilməsinə zərər yetirməməlidir". APA-nın məlumatına görə, bu barədə Avropa Birliyinin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Ketrin Eştonun dünən yayılmış bəyanatında deyilir.

Bəyanatda K. Eşton ATƏT-in Minsk Qrupunu və həmsədrlərin münaqişənin dinc yolla həll olunması üçün göstərdikləri səyləri bir daha dəstəkləyib.

"Mən tərəfləri münaqişənin danışıqlar yolu ilə Madrid prinsipləri əsasında həll yolunun tapılması üzrə səylərini fəallaşdırmağa çağırıram. Mən Avropa Birliyinin bu istiqamətdəki səylərə bundan sonra da dəstək verəcəyini təsdiqləyirəm", deyə AB ali nümayəndəsi bəyan edib.

"Digər beynəlxalq təşkilatlar kimi NATO da Dağlıq Qarabağda keçirilən qondarma "seçkiləri" tanımır". Bu fikirləri isə APA-ya eksklüziv açıqlamasında NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya regionu üzrə xüsusi nümayəndəsi Ceyms Appaturay verib. O bildirib ki, bu cür "seçkilərin" keçirilməsi nizamlanma prosesinə maneçilik törədir: "Belə seçkilərin keçirilməsi Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması prosesi ilə ziddiyyət təşkil edir".

## Qarabağın Azərbaycanlı İcması qondarma "seçki"ni pislədi

"Dağlıq Qarabağın Azərbaycanlı İcması" İctimai Birliyi Dağlıq Qarabağ bölgəsində iyulun 19-da qondarma "prezident seckiləri"nin keçirilməsi ilə bağlı bəyanat yayıb. İctimai Birliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, bəyanatda bildirilib ki, Azərbaycanın Ermənistan Silahlı Qüvvələrinin işğalı altında olan Dağlıq Qarabağ bölgəsində 2012-ci il iyulun 19-da qondarma "prezident seckiləri" keçirilməsi Azərbaycan xalqının, o cümlədən Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının kəskin etirazına səbəb olub: "Bu məsələ ictimai birliyin İdarə Heyətinin iclasında müzakirə olunub və qətiyyətlə pislənlib. Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması bəyan edir ki, bu qeyri-qanuni "seçkilər" Azərbaycan Respublikasının Konstitusiyasını, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozur və Dağlıq Qarabağ bölgəsində tarixən yaşamış azərbaycanlı əhalinin seçki hüquqlarını nəzərə almır".

Bəyanatda qeyd olunub ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində legitim seçkilər yalnız Ermənistanın Silahlı Qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılmasından, oradan qovulan azərbaycanlı əhalinin öz doğma torpaqlarına qayıtmasından, bölgənin azərbaycanlı və erməni icmaları arasında dinc yaşayışın təmin olunmasından sonra keçirilə bilər: "Ermənistan beynəlxalq hüquq normalarına, BMT-nin Nizamnaməsinə zidd olaraq və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq təşkilatların qərarlarına əhəmiyyət verməyərək artıq neçənci dəfədir ki, Azərbaycanın işğal altındakı ərazilərində belə "seçkilər" təşkil edir. Ermənistan öz qanunsuz hərəkətləri ilə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması yolunda ATƏT-in Minsk qrupu çərçivəsində aparılan sülh danışıqlarına, beynəlxalq birliyin regionda sülh və əməkdaşlıq yaratmaq təşəbbüslərinə və icmalar arasındakı dialoq imkanlarına köklü zərbə vurur. Bütün dünyaya bəllidir ki, Azərbaycanın işğal olunmuş ərazilərindəki tanınmamış qanunsuz rejim azərbaycanlı əhalinin etnik təmizlənməsi əsasında Ermənistan tərəfindən təşkil olunmuş cinayətkar qurumdur. Məhz buna görə beynəlxalq təşkilatlar və dünya ölkələri də Ermənistanın öz işğalçılıq siyasətini ört-basdır etmək məqsədi ilə Dağlıq Qarabağda əvvəllər keçirdiyi bu cür qondarma "seckiləri" heç vaxt tanımayıb".

Bəyanatda Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ümidvar olduğunu bildirib ki, Ermənistanın qeyri-konstruktiv hərəkətləri beynəlxalq birlik tərəfindən bir daha kəskin şəkildə qınanılacaq, bu ölkənin işğalçı siyasətinə son qoyulması üçün ən təsirli tədbirlər görüləcəkdir: "Bölgənin erməni və azərbaycanlı icmaları arasında qarşılıqlı etimada əsaslanan münasibətlərin formalaşdırılması Dağlıq Qarabağ münaqişəsinin həllinə öz müsbət töhfəsini verə bilər. Bu səbəbdən icmalar arasında görüşlərin keçirilməsini də zəruri hesab edirik. Hesab edirik ki, Ermənistanın silahlı qüvvələri işğal olunmuş Azərbaycan ərazilərindən çıxmayına və münaqişə ədalətli həll edilməyənə qədər regionda uzunmüddətli sülhün və əməkdaşlığın bərqərar olması mümkün deyildir. Biz inanırıq ki, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları əsasında ədalətli həllini tapacaq, azərbaycanlı əhali öz doğma torpaqlarına qayıdacaq və bölgənin iki icması arasında dinc yaşayış təmin olunacaqdır".

### Rusiyalı deputatlar Qarabağdakı qanunsuz seçkini izləyib

Azərbaycan Milli Məclisi qondarma "prezident seçkiləri"ni izləmək üçün Dağlıq Qarabağa gəlmiş rusiyalı deputatlarla bağlı öz münasibətini bildirəcək. Bu barədə APA-ya açıqlamasında Milli Məclisin Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsinin sədri Səməd Seyidov bildirib.

S. Seyidov hazırda araşdırmaların getdiyini və Azərbaycanın bu məsələ ilə bağlı mövqeyinin bəlli olduğunu deyib.

"Hazırda bununla bağlı Xarici İşlər Nazirliyi araşdırma aparır. Araşdırmalardan sonra Milli Məclis buna öz münasibətini bildirəcək", — deyə S. Seyidov vurğulayıb.

Qeyd edək ki, Dağlıq Qarabağda seçkiləri izləmək üçün Rusiya, Kipr və bir sıra ölkələrin parlamentlərindən nümayəndələr bölgəyə gəlib. Ermənistan KİV-lərinin məlumatına görə, seçkiləri 15 ölkədən 80 müşahidəçi izləyəcək.

### Ermənistan ordusu növbəti atəşkəs pozuntusuna yol verib

Ermənistan silahlı qüvvələrinin bölmələri iyulun 18-də və 19-na keçən gecə Ermənistan Respublikasının İcevan rayonunun Paravakar kəndində; Ağdam rayonunun Qaraqaşlı; Füzuli rayonunun Qorqan; Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri yaxınlığında və Daşkəsən rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən atəşkəs rejimini pozublar. Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, düşmən cavab atəşi ilə susdurulub.

## I ixtisas qrupu üzrə qəbul imtahanı bu gün keçirilir

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası iyulun 20-də 2012-2013-ci tədris ili üçün Azərbaycanın ali təhsil müəssisələrinə və tam orta təhsil bazasından (11 illik) orta ixtisas təhsili müəssisələrinə I ixtisas qrupu üzrə qəbul imtahanı keçirəcək. TQDK-dan verilən məlumata görə, imtahan respublikanın 6 şəhərində — Bakıda 37, Naxçıvanda 2, Gəncədə 6, Sumqayıtda 7, Şəkidə 3, Lənkəranda 4 binada keçiriləcək. Orta ümumtəhsil müəssisələrindən 2528 nəzarətçi-müəllimin iştirak edəcəyi imtahana 235 imtahan rəhbəri cəlb olunacaq.

İmtahanın gedişini işıqlandırmaq üçün 70-dək KİV nümayəndəsi TQDK-da akreditasiyadan keçib. 2012-ci ildə I qrup üzrə 33533 abituriyent ərizə təqdim edib.



I ixtisas qrupu üzrə sənəd verənlərin 30803 nəfəri Azərbaycan bölməsinin, 2730 nəfəri isə rus bölməsinin məzunudur. Abituriyentlərin 19847 nəfərini oğlanlar, 13686 nəfərini isə qızlar təşkil edir. 18818 nəfər orta ümumtəhsil məktəblərinin builki, 13259 nəfər əvvəlki illərin məzunudur. Bu ixtisas qrupu üzrə təhsil almaq istəyən 167 abituriyent xarici ölkələrin vətəndaşıdır. 123 abituriyent ali təhsillidir və I ixtisas qrupu üzrə ikinci ali təhsil almaq arzusundadır. 1333 abituriyent orta ixtisas təhsili müəssisələrinin məzunudur. Ən yaşlı abituriyent 1956-ci il, ən gənc isə 1997-ci il təvəllüdlüdür.

Bakıda 21080, Naxçıvanda 1324, Gəncədə 3400, Sumqayıtda 4368, Şəkidə 1653, Lənkəranda isə 1708 abituriyent imtahan verəcək. İmtahan bütün binalarda eyni vaxtda — saat 11:00-da başlanacaq və 3 saat ərzində aparılacaq. İmtahan binasına giriş zamanı uzərində mobil telefon, konspekt və digər yardımcı vasitələr aşkar olunan abituriyentlər barədə akt tərtib olunaraq, onların imtahan sənədləri alınacaq və imtahan binasına buraxılmayacaqlar.

İmtahandan dərhal sonra müstəqil ekspertlər tərəfindən I ixtisas qrupu üzrə test suallarının ekspertizası aparılacaq. Həmin gün saat 19:00-da "Space" telekanalında canlı yayımlanan "Abituriyent" verilişində TQDK-nın məsul əməkdaşları və ekspertləri tərəfindən imtahanda istifadə olunmuş sualların düzgün cavabları və test tapşırıqları ilə bağlı geniş izahat veriləcək. İmtahanda istifadə olunmuş sualların düzgün cavabları eyni zamanda TQDK-nın internet saytında yerləşdiriləcək. I ixtisas qrupu imtahan vermiş abituriyentlərinin cavab kartlarının emalı başa çatdıqdan sonra nəticələr qısa müddətdə TQDK-nın internet saytında yerləşdiriləcək. Abituriyentlər imtahan nəticələri barədə məlumatı həmçinin mobil telefonla 7727 nömrəsinə iş nömrələrini göndərməklə öyrənə biləcəklər. I ixtisas qrupunda xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslara qəbul olmaq istəyən və qabiliyyət imtahan komissiyasında qeydiyyatdan keçmiş abituriyentlər iyulun 24-dən 30-dək qabiliyyət imtahanı verməlidirlər. Qabiliyyət imtahanını müvəffəqiyyətlə verən abituriyentlər ixtisas seçimi zamanı elektron ərizələrində müvafiq ixtisasın kodunu göstərə bilərlər. Qabiliyyət imtahanından müvəffəqiyyətlə keçməyən abituriyentlər isə I ixtisas qrupuna daxil olan digər ixtisasların müsabiqəsində iştirak edə biləcəklər. Bütün qruplar üzrə ixtisas seçimi abituriyentlərin qəbul imtahanlarında topladıqları ballar elan olunduqdan sonra avqustun 7-dən avqustun 16-dək internet vasitəsilə aparılacaq.

Tam orta təhsil bazasında (11 illik) orta ixtisas təhsili müəssisələrinə daxil olmaq istəyən və müsabiqə şərtlərini ödəyən abituriyentlər ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələri elan olunduqdan sonra TQDK tərəfindən təyin olunacaq müddətdə elektron ərizələrinə daxil olub, orta ixtisas təhsili müəssisələrinin ixtisaslarını seçə biləcəklər.

**S.QARAYEVA**

## Generallar yanğın olan hərbi hissəyə getdilər

Dünən saat 07.00 radələrində DSX-nin Səngəçal qəsəbəsində yerləşən "N" saylı hərbi hissənin anbarında yanğın olub. Dövlət Sərhəd Xidməti (DSX) və Fövqəladə Hallar Nazirliyi (FHN) Bakıda Sərhəd Qoşunlarına məxsus "N" saylı hərbi hissədə baş verən yanğınla bağlı birgə məlumat yayıb. APA-ya daxil olan birgə məlumatda bildirilir ki, dünən saat 07.00 radələrində baş verən yanğınla əlaqədar baş nazirin müavini Yaqub Eyyubov, fövqəladə hallar naziri Kəmaləddin Heydərov, DSX-nin rəisi Elçin Quliyev və respublika hərbi prokuroru Xanlar Vəliyev hadisə yerinə gəliblər.

Yanğının söndürülməsi üçün dərhal hadisə yerinə gələn FHN-nin xüsusi dəstələri və texnikası, həmçinin aviatexnikası tərəfindən görülmüş tədbirlər nəticəsində yanğının yayılmasının qarşısı alınıb və az müddətdən sonra yanğın tam söndürülüb.

Baş vermiş hadisə ilə əlaqədar FHN, DSX və Hərbi Prokurorluq tərəfindən araşdırma aparılır.

## Bu gündən havanın temperaturu aşağı düşəcək

### BAKIDA VƏ ABŞERON YARIMADASINDA DƏYİŞKƏN BULUDLU HAVA ŞƏRAİTİ HÖKM SÜRƏCƏK, BƏZİ YERLƏRDƏ YAĞIŞ YAĞACAQ

Bakıda və Abşeron yarımadasında iyulun 20-də hava dəyişkən buludlu olacaq, arabir tutulacaq, gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Ekologiya və Təbii Sərvətlər nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, mülayim şimal-qərb küləyi əsəcək, gecə və səhər yarımadanın bəzi yerlərində arabir güclənəcək. Havanın temperaturu gecə 20-23, gündüz 27-32 dərəcə isti olacaq.

Abşeronun çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 24-25, Zaqulba, Buzovna, Mərdəkan, Şüvəlanda 25-26, Türkan, Hövsan, Sahil, Şıxda 26-27 dərəcə isti təşkil edəcək.

Azərbaycanın rayonlarında sabah əsasən gecə və axşam saatlarında bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Dağlıq və dağətəyi rayonlarda leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25, gündüz 30-35, dağlarda gecə 7-12, gündüz 18-23 dərəcə isti olacaq.

## Azərbaycan gəmiləri "Uran-E" raket kompleksləri ilə silahlandırılacaq

### "URAN-E" KOMPLEKSİ 5 MİN TONA QƏDƏR ÇƏKİLİ SUÜSTÜ GƏMİLƏRİN MƏHVİ ÜÇÜN NƏZƏRDƏ TUTULUB

Azərbaycan Rusiyanın "Taktik Raket Silahlandırmaları" Korporasiyasına "Uran-E" gəmi raket kompleksləri sifariş verib. APA-nın xəbərinə görə, bu barədə adıçəkilən şirkətin hesabatında məlumat verilib.

Azərbaycan 2010-cu ildə 75 milyon ABŞ dolları dəyərində "Uran-E" kompleksinin satın alınmasına dair sifariş yerləşdirib. Azərbaycanın sifarişi üzrə komplekslərin çatdırılması 2014-cü ildə yekunlaşmalıdır.

Şirkətin hesabatında Türkmənistan və Qazaxıstan da analoji komplekslər sifariş verdiyi qeyd olunub. Türkmənistanın birinci sifarişinin məbləği 79.8 milyon dollar, ikinci sifarişin məbləği isə 40 milyon dollardır (ikinci sifarişin kompleks və ya raketlər olduğu açıqlanmayıb). Korporasiya Türkmənistanın əsas sifarişləri üzrə çatdırılmaları bu il yekunlaşdıracaq. İkinci sifarişin icrası isə 2014-cü ildə başa çatdırılmalıdır. Qazaxıstanın sifarişi isə 30 milyon dollar həcmindədir və bu ölkənin sifarişi üzrə çatdırılmalara 2013-cü ildə başlanacaq.

Qeyd edək ki, suüstü gəmilərin, katerlərin və köməkçi gəmilərin silahlandırılmasında istifadə olunan "Uran-E" kompleksi 5 min tona qədər çəkili suüstü gəmilərin məhvi üçün nəzərdə tutulub.

# *Qənirə Paşayeva:* "Biz torpaqlarımıza qayıdacağıq yox, qayıtmalıyıq fikri ilə yaşamalıyıq"

"Qarabağa, erməni işğalı altındakı torpaqlarımıza qayıdacağımız gün heç də uzaqda deyil. Elə bilirəm ki, kimliyindən asılı olmayaraq, vətənini, torpağını, dövlətini sevən hər bir kəsin, hər bir azərbaycanlının daxilində də bu inam, bu hiss var". Bu fikirləri dünən Azərbaycan Mətbuat Şurasında (AMŞ) "Ruhum qarabağlıdır" filminin təqdimat mərasimində çıxış edən millət vəkili Qənirə Paşayeva dilə gətirib. Qeyd edək ki, sözügedən film millət vəkilinin "Ruhum qarabağlıdır" şeirlər silsiləsi əsasında ssenariləşdirilib. Ssenarinin müəllifi isə tanınmış telejurnalist Bəxtiyar Qaracadır. Millət vəkilinin qeyd etdiyinə görə, "Ruhum qarabağlıdır" şeirlər silsiləsinə və eyniadlı filmə gedən yol əslində onun Facebookdakı yazışmalarından başlayır: "Bir xeyli müddət əvvəl İctimai Televiziya tərəfindən çəkilən, Xocalı ilə bağlı filmin təqdimatı zamanı 26 nəfər yaxınını, doğmasını itirən bir nəfər xocalılı, ağbirçək anamız mənə yaxınlaşdı və sual etdi ki, "Ay qızım, axı biz nə vaxt öz torpaqlarımıza qayıdacağıq? Biz heç olmasa, öz torpaqlarımızda ölməyi, orada dəfn olunmağı istəyirik və bunun arzusu ilə yaşayırıq. Düzünü desəm, həmin ağbirçək ananın bu sözləri qarşısında cavab verməyə çətinlik çəkdim, aciz qaldım. Çünki bu



suala konkret cavab verməyə söz tapmaq olmur. Ancaq onun mənə ünvanladığı suala cavab verməyim, onun ümidini qırmamağım da lazım idi. Mən də o zaman cavab verdim ki, "ay ana, torpaqlarımıza, Qarabağımıza qayıdacağımız gün o qədər də uzaqda deyil". Ümumiyyətlə hesab edirəm ki, Qarabağımıza, işğal altında olan torpaqlarımıza qayıdacağımızla bağlı hər birimizin qəlbində daxili əminlik var. Elə düşünürəm ki, biz torpaqlarımıza qayıdacağıq düşüncəsi ilə yox, torpaqlarımıza qayıtmalıyıq düşüncəsi ilə yaşamalıyıq, fəaliyyət göstərməliyik, çünki bunun başqa bir alternativi də yoxdur və ola da bilməz. Biz bir millət, bir xalq, bir dövlət kimi gələcəyimizi davam etdirmək istəyiriksə, o zaman torpaqlarımıza qayıtmalıyıq".

Millət vəkili məhz həmin görüşdən sonra Facebook səhifəsində daxilindən gələn bir sıra sözləri, fikirləri qələmə aldığını bildirib: "Mənim nə yazarlığa, nə də şairliyə iddiam var. Heç zaman istəməmişəm ki, adımın, soyadımın qarşısında da şair və ya yazıçı sözü yazılsın. Ancaq sadəcə ürəyimdən keçən sözlər var və olur ki, onları yazmaq istəyirəm və yazıram da. Elə "Ruhum qarabağlıdır" şeirlər silsiləsi də məhz belə yarandı. Bunun üstündən iki-üç keçəndən sonra Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı, xalqımızın vətənpərvər oğullarından biri, Qarabağ müharibəsi veteranı Eyvaz Hüseynov mənə zəng etdi və dedi ki, "seirlərinizi oxudum, mənə çox təsir etdi". Sən demə, Facebook səhifəmdə paylaşdığım, yazdığım həmin sözləri Modern.az saytı şeir parçası kimi dərc edibmiş və Eyvaz müəllim də onu oradan oxuyubmuş. Sonra elə oldu ki, biz Türkiyədən gələn millət vəkili həmkarımızla birlikdə Xocavənd rayonunun — Dağlıq Qarabağın bizim əlimizdə olan çox kiçik parçasına, Nərgiztəpə deyilən əraziyə səfər edəsi olduq. Biz həmin ərazidə tədbir keçirdikdən sonra Xocavənd rayonunun icra başçısı Eyvaz müəllim bildirdi ki, xocavəndlilər bir film hazırlayıblar, onun nümayişi olacaq. Onlar bu filmin çəkilişinə Bəxtiyar müəllimi də cəlb ediblərmiş. Beləliklə də, Facebook yazışmalarımdan başlayan yolun davamı olaraq, "Ruhum qarabağlıdır" adlı film ərsəyə gəldi". Q.Paşayeva filmin onu çox təsirləndirdiyini də bildirib: "Ona görə yox ki, orada səslənən şeirləri mən yazmışam və bu film mənim şeirlərim əsasında yazılıb. Məni təsirləndirən o oldu ki, bu filmin oyunçuları aktyorlar, aktrisalar deyil, sadə xocavəndlilər, Qarabağ ağrı-acılarını yaşayan dağlıq qarabağlılardır. Bizim nəsil, konkret olaraq mən özüm Qarabağı gəzmişəm, görmüşəm, orada olmuşam. Ancaq bugünkü nəsil, xüsusən də əslən Qarabağdan olub, ancaq işğaldan sonra dünyaya gələn nəslimiz oraları görməyiblər. Ona görə də, hesab edirəm ki, biz heç bir zaman Qarabağa qayıdacağımız günün, anın uzaqda olmadığı fikri ilə yaşamalıyıq. Biz o torpaqlara qayıtmalıyıq və qayıdacağıq".

**Kamil HƏMZƏOĞLU**

# *Elman Abdullayev:* "İşğal edilən torpaqlar üzərindən aviareyslərin təşkili provokasiya və insidentlərə səbəb ola bilər"

"Ermənistan tərəfinin işğal edilən Dağlıq Qarabağa mülki aviasiyanın uçuşlarını təşkil etmək niyyəti beynəlxalq qanunlara ziddir və erməni tərəfinin provokasiya məqsədi daşıyan addımıdır".

Belə bir açıqlama ilə Xarici İşlər Nazirliyinin mətbuat katibi Elman Abdullayev çıxış edib. O bildirib ki, Dağlıq Qarabağ beynəlxalq cəmiyyət tərəfindən tanınan Azərbaycan ərazisinin bir hissəsidir. Lakin onun Ermənistan tərəfindən işğal edilməsi səbəbindən, Azərbaycan bu regionda vəziyyətə nəzarət etmək imkanında məhrumdur, buna görə bu cür uçuşların təhlükəsizliyinə zəmanət vermir.

E.Abdullayev diqqəti ATƏT-in Minsk qrupunun həmsədrlərinin bu yaxınlarda verdikləri bəyanatda Qarabağ münaqişəsi tərəflərini bu məsələyə dair beynəlxalq konvensiyalar və sazişlər əsasında anlaşmaya nail olmağa çağırdıqlarına yönəldib. XİN rəsmisi deyib ki, Azərbaycan hər zaman beynəlxalq hüquq normalarına əsaslanaraq işğal edilən torpaqları üzərindən aviareyslərin təşkilinin yolverilməz olduğunu bəyan edib: "Çünki Ermənistan tərəfinin bu qanunsuz addımı müxtəlif növ provokasiya və insidentlərə səbəb ola bilər. "Biz bununla əlaqədar dəfələrlə mövqeyimizi beynəlxalq təşkilatlara çatdırmışıq".

Siyasi ekspert Rövşən İbrahimov isə deyib ki, beynəlxalq hüquqa müvafiq olaraq, Azərbaycan hava məkanında uçuşların təşkil edilməsi ilə bağlı suveren hüququnu özündə saxlayır. Bu baxımdan, müvafiq orqanlarımız sözügedən vəziyyətdə müxtəlif müstəsna variantlardan istifadə edə bilərlər: "Tutaq ki, əgər təyyarə Ermənistandan havaya qalxarsa, o zaman bizim hərbi təyyarələr bu hava gəmisini müşayiət edərək, onu məcburi olaraq geri qayıtmağa, yerə enməyə vadar edə bilərlər və əlacsız qaldıqda vura bilərlər". Minsk qrupu həmsədrlərinin bununla bağlı bəyanatına toxunan ekspertə görə, vasitəçilər Azərbaycan belə bir hüquqa malik olduğunu, eyni zamanda öz torpaqlarını geri almaq hüququna sahib olmasını anlayırlar, ona görə də güc tətbiq edilməsinin qarşısını almağa çalışırlar. Ekspert bildirib ki, Azərbaycan qarşı tərəfi belə uçuşların həyata keçirilməsindən yayınmağa çağırıb və bəyan edib ki, hər şeydən əvvəl problemin sülh yolu ilə həllinə çalışacaq: Lakin bu heç bir halda Azərbaycanı bu hava gəmilərini vurmaq hüququndan məhrum etmir. Eyni zamanda unutmaq olmaz ki, Azərbaycan beynəlxalq terrorçuluqla mübarizə çərçivəsində hava gəmilərinin qaçırılması və ya terrorçuluq məqsədləri ilə istifadə olunacağı təqdirdə xəbərdarlıq etmədən bu gəmiləri vurmaq hüququna malikdir".

**PƏRVANƏ**

# Turizmin inkişafında gənclərin rolunun artırılması üçün layihə hazırlanıb

Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə "Azad Gənclər" İctimai Birliyi "Turizmin inkişafı sahəsində gənclərin rolunun artırılması" layihəsini həyata keçiriləcək. Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, layihə çərçivəsində 2 qrup üçün "Turizm sahəsində biznes-planların hazırlanması" mövzusunda təlim kursları təşkil ediləcək. Təlimlərin Masallı və Xaçmaz rayonlarında keçirilməsi nəzərdə tutulur. Layihənin məqsədi gənclərin biznes biliklərinin artırılması və sahibkarlıq fəaliyyətinə həvəsləndirilməsidir. Layihədə gənclər iştirak etməklə, turizm sahəsində biznes plan hazırlamağı, sahibkarlıq fəaliyyətinə başlamağı və idarəçiliyin əsaslarına yiyələndirməkdir. Təlim məşqlər müasir təhsil metodlarına əsaslanaraq həyata keçiriləcək. Təlim zamanı paylama materialı, təqdimatlar, qrup oyunları olmuş və tədris zamanı interaktivlik təmin ediləcək. İştirakçılara turizm sahəsinə aid normativ-hüquqi baza və dövlət proqramları haqqında məlumat verilmiş, biznes planların hazırlanmasına dair təlimlər keçirilmiş, iştirakçılar tərəfindən biznes-planların hazırlanmasına nail olunub.

Layihə iştirakçılarının ümumi sayı 50 nəfər olub və onlar təlim-məşqlər zamanı bir sıra sualların cavabları nəzərdə tutulacaq.

**S.QARAYEVA**

# Moskva Dövlət Universitetinin Bakı Filialına bakalavr pilləsi üzrə tələbə qəbulu elan olunub

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı Filialı 2012-2013-cü tədris ili üçün bakalavr pilləsinə tələbə qəbulu elan edib. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) mətbuat xidmətindən verilən məlumata görə, universitetin filologiya, riyaziyyat və kompyuter elmləri, kimya, psixologiya və iqtisadiyyat ixtisasları üzrə qəbul aparılacaq. Azərbaycan vətəndaşları üçün təhsil ödənişsizdir.

Qeyd edək ki, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin yaratdığı Qəbul komissiyası tərəfindən aparılan qəbul imtahanlarında yalnız TQDK-nın keçirdiyi test imtahanlarında 300 və daha artıq bal toplayan abituriyentlər iştirak edə bilərlər.

Məlumatda bildirilib ki, qəbul imtahanlarında iştirak etmək istəyənlər universitetin qəbul komissiyasına 2012-2013-cü tədris ili üçün ali məktəblərə keçirilən test imtahanlarında toplanılan ballar haqqında TQDK-nın arayışını, orta təhsil haqqında sənədi (attestat, əsli), şəxsiyyət vəsiqəsini (əsli) və 3x4 sm ölçüdə 8 ədəd fotoşəkil təqdim etməlidirlər. MDU-nun Bakı Filialına sınaqlardan keçməyən abituriyentlər heç bir məhdudiyyət qoyulmadan TQDK tərəfindən digər ali təhsil müəssisələrinə keçirilən müsabiqədə iştirak edə bilərlər.

Sənədlər 17 iyul — 07 avqust tarixlərində saat 9:00-dan 18:00-dək qəbul olunacaq. Qəbul imtahanları 8-12 avqust tarixlərində keçiriləcək.

**S.QARAYEVA**

# *Rob Sobhani:* "İran Amerikanın müttəfiqi olan Azərbaycanı hədəfə alır"

İran rejiminin ABŞ-ın Azərbaycandakı səfirini 2011-ci ildə öldürmək istəməsi xəbəri Amerikanın Yaxın Şərqin yaxınlığında yerləşən ən etibarlı müttəfiqlərindən birini nüfuzdan salmaq üçün Tehranın dəfələrlə etdiyi cəhdləri izləyən ABŞ Konqresinin üzvləri üçün gözlənilməz olmamalıdır.

APA-nın "The Hill" nəşrinə istinadən verdiyi məlumata görə, bu barədə "Xəzər Holdinqlər Qrupu" ("Caspian Group Holdings") MMC-nin sədri, ABŞ-ın xarici siyasət üzrə eksperti Rob Sobhani özünün "İran Amerikanın müttəfiqi olan Azərbaycanı hədəfə alır" məqaləsində yazıb.

Yazıda bildirilir: "Azərbaycanın paytaxtı Bakı şəhərində bir həftə keçirdikdən sonra İran rejiminin öz şimal sərhədində yerləşən bu keçmiş sovet respublikasını məhv etmək istəməsi çox aydın oldu. Tehran Azərbaycanda stabilliyi pozmaq üçün bütün imkanlardan istifadə edir.

Mənim Bakı səfərimin səbəbi o idi ki, Azərbaycanda "American İdol" adlı müsabiqəyə bərabər olan "Eurovision" mahnı müsabiqəsi keçirilirdi.

Müsəlman millətinin bütün Avropadan gələn müğənniləri, rəqqasları, turistləri onların geyimindən və cinsi oriyentasiyasından asılı olmayaraq sevinclə qarşılaması İranın qeyri-tolerant olan mollaları üçün bir lənətdir. Bu xarici ittihamdan başqa, İranın Amerikanın tərəfdaşı olan bu ölkəni hədəfə almaq üçün çox köklü səbəbləri vardır. Birincisi, Azərbaycan Prezidenti İlham Əliyev Tehranın onun ölkəsinin Amerika və İsraillə münasibətləri qırmaq tələblərinə riayət etməkdən imtina etdi. Əliyevin Qərbə yönələn xarici siyasəti Azərbaycanın müstəqilliyində böyük inama əsaslanıb. O, həmçinin Azərbaycanın çoxmədəniyyətli ölkə olmasının möhkəm müdafiəçisidir. Əliyev Azərbaycanın İslam irsinə hörmət etdiyi halda, İranın ali lideri ayətulla Xameneinin ideologiyanin milli maraqlardan üstün olmalıdır fikirləri ilə razılaşmır. İkincisi, Azərbaycanın İsraillə səmimi və dərin münasibətləri var və bu, İrandakı rejimi qıcıqlandırır. Azərbaycanın yəhudi ölkəsi ilə əlaqələri əsasən aqrobiznes, telekommunikasiya və hərbi əməkdaşlıq sahələrinə köklənir.



Azərbaycan hökuməti səxavətlə Bakıda Aşkenazi yəhudiləri icmasının əsas sinaqoqunu tikir. İranın xüsusi xidmət orqanları 2011-ci ildə İsrailin Azərbaycandakı səfirini sui-qəsd üçün hədəfə almışdılar. Üçüncüsü və bəlkə də ən vacibi, Azərbaycanın dünyəvi ölkə olması, dini tolerantlığı, iqtisadi inkişafı və Qərbə yönələn xarici siyasəti hal-hazırda İranda tələdə saxlanılan sülhsevər insanlar üçün yeni nümunədir. Uğurla müasirləşən müsəlman ölkəsi İranın teokratiyasına təhlükədir. İranın son üç dekada ərzində azalan neft istehsalını artırmaq üçün vahid hasilatın pay bölgüsü haqqında saziş imzalamamasına baxmayaraq, Azərbaycan 60 milyard dollar məbləğində 20 HPBS imzalayıb. Təəccüblü deyil ki, Azərbaycan beynəlxalq bazarlara gündə 1 milyon bareldən çox xam neft ixrac etməklə öz neft istehsalını artırır. Azərbaycan həmçinin Avropaya əsas qaz ixracatçısıdır, halbuki dünyanın ikinci təbii qaz ehtiyatları mərkəzi olan İran, beynəlxalq bazarlarda az rola malik bir oyunçudur. Bu gün ABŞ və Avropanın əsas enerji şirkətləri Azərbaycan qazı üzrə müqavilələr imzalamaq üçün Bakıya axışır. Bu, Bakının iqtisadi inkişafın Qərblə sağlam münasibətlərə bağlı olmalı olduğunu anlayan uğurlu müstəqil xarici siyasətinə sübutdur. Azərbaycanın 20 illik müstəqilliyi dövründə iqtisadi islahatlarla bağlı rekordu İranın rekordundan əhəmiyyətli dərəcədə yaxşıdır. ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayzaya görə, "iqtisadi islahatçılar ehtiyatlı maliyyə və valyuta siyasətinə riayət edərək Norveç kimi yaxşı idarə edilən suveren rifah fondunu yaratmışdır. Azərbaycan cəmiyyətində yayılan korrupsiyaya baxmayaraq, hökumət islahatçıları ölkənin enerji gəlirlərinin çoxunu yoxsulluqla mübarizə proqramına sərf edib. Bu isə 2003-cü ildən 2009-cu ilə qədər yoxsulluq faizini 49%-dən 9,1%-ə qədər (Dünya Bankına görə 16%) azaltmağa yardım etdi".

Doğrudan da, Azərbaycanın Neft Fondu dünyanın ən şəffaf fondu sayılır və ehtiyatlarında 32 milyard dollardan çox vəsait var. Bu isə İranın qeyri-şəffaf neft satışı üsuluna və neft gəlirlərindən öz çirkin məqsədləri üçün istifadə edən inqilab mühafizəçiləri və ali liderin cəlb olunmasına kəskin dərəcədə ziddir. Təəccüblü deyil ki, son üç dekada ərzində İranın iqtisadiyyatı korrupsiyanın həcmi, yanlış idarəetmə və ideologiyalaşdırılmış sistemin çəkisi altında yubanır. Azərbaycan isə əksinə, öz müstəqilliyindən bəri çiçəklənir. Onun Ümumi Milli Məhsulu son 10 ilik ərzində orta hesabla 20 faiz artıb. Borcun Ümumi Daxili məhsula nisbəti cəmi 8 faizdir. İnflyasiya nəzarət altındadır və Azərbaycan manatı ABŞ dolları ilə müqayisədə öz dəyərini saxlayıb. Bu isə, qərbyönümlü Şah Məhəmməd Rza Pəhləvinin devrilməsindən bəri öz dəyərini 90% itirən İran rialından kəskin şəkildə fərqlidir. Azərbaycan Amerikanın terrorla mübarizədə davamlı müttəfiqidir və öz qoşunlarını İraq və Əfqanıstana göndərib. Bu isə İrandan fərqlənir, çünki İraq və Əfqanıstanda ABŞ hərbçilərini İranın "Əl-Qüds" qüvvələri qətlə yetirib. Baxmayaraq ki, Azərbaycan ABŞ-ın Əfqanıstana yükdaşımalarında bir koridordur, İran Əl-Qaidə və Hamas kimi Süni qruplara kömək edərək, ABŞ-ın səylərinə ziyan vurur. Keçən ay, Xanım Klinton son iki il ərzində Azərbaycana öz ikinci səfərini həyat keçirib. O, Azərbaycana öz dəstəyini bildirib və bütün sahələrində dərin tərəfdaşlıq təklif edib.

Amma onun ən vacibini deməyib; ABŞ Azərbaycanın təhlükəli ideologiyaların və qeyri-tolerant dəyərlərin hədəfinə çevrilməsinə imkan verəcəkmi? Konqres administrasiyadan daha ciddi bəyanatla çıxış etmək və bizim müttəfiqlərə necə kömək etmək niyyətimizi bildirməyini tələb etməlidir".

# Mərkəzi Bankın İdarə Heyətinin iclası keçirilib

Mərkəzi Bankın İdarə Heyətinin 2012-ci ilin I yarımillik fəaliyyətinin yekunlarına həsr olunmuş geniş iclası keçirilib. Mərkəzi Bankdan verilən məlumata görə, Elman Rüstəmov çıxışında qeyd edib ki, 2012-ci ilin ötən dövrü ərzində Bankın həm cari, həm də strateji fəaliyyəti ölkə iqtisadiyyatının dayanıqlı artımı və inkişafına yönəlmiş iqtisadi siyasətin hərtərəfli dəstəklənməsinə xidmət edib. Bankın idarə heyətinin sədrinin sözlərinə görə, ötən 6 ayda ölkədə iqtisadi artım tempi 1,5 faiz olub, qeyri-neft sektoru 11,3 faiz artıb: "Qeyri-neft iqtisadiyyatına qoyulan investisiyaların həcmi isə 30,2 faiz böyüyüb. Xarici ticarət balansının profisiti 7 mlrd. dollar təşkil edib, strateji valyuta ehtiyatları 44 mlrd. dolları ötüb. Makroiqtisadi sabitlik qorunub, orta illik inflyasiya cəmi 2,2 faiz təşkil edib. Tədiyə balansının irihəcmli profisiti şəraitində manatın məzənnəsinin sabitliyini qorumaq üçün Mərkəzi Bank 639 mln. dollar həcmində valyuta sterilizasiyası həyata keçirib. Nəticədə manatın ABŞ dollarına qarşı məzənnəsi dövr ərzində cəmi 0,11 faiz möhkəmlənib. Bununla belə, manatın real məzənnəsi əlverişli səviyyədə qalıb, ilin əvvəlindən real ucuzlaşma tempi 1,5 faiz olub".

İclasda vurğulanıb ki, cari ilin altı ayının sosial-iqtisadi inkişaf yekunlarına həsr edilmiş geniş iclasda Prezident İlham Əliyev tərəfindən makroiqtisadi sabitlik mühüm prioritet kimi qeyd olunub. Bu prioritetdən çıxış edərək inflyasiyanın təkrəqəmli səviyyədə saxlanılmasına yönəlmiş tədbirlər bundan sonra da davam etdirilməlidir.

İclasda bank sisteminin inkişafı da geniş təhlil edilib və qeyd olunub ki, ötən dövr ərzində bank sektorunda konsolidasiya və restrukturizasiya prosesləri də diqqətdə saxlanılıb, bu sahədə zəruri tədbirlər həyata keçirilib. Prudensial nəzarətin formalaşmadqa olan yeni Bazel-3 standartlarına uyğunlaşdırılması prosesi də davam edib. Növbəti ildə beynəlxalq maliyyə institutları ilə birgə həyata keçiriləcək bank sektorunun qiymətləndirilməsi proqramı (FSAP) üzrə zəruri hazırlıq işləri həyata keçirilib.

Birinci yarım il ərzində Bankın fəaliyyətinin digər istiqamətlərində də müsbət nəticələr əldə edilib. Mərkəzi Bank valyuta ehtiyatlarının idarə olunması, ödəniş sistemlərinin elektron hökumət konsepsiyası çərçivəsində daha da inkişaf etməsi, nağd pul dövriyyəsinin təşkili, idarə olunması və optimallaşması, mühüm qanunvericilik təşəbbüslərinin reallaşması istiqamətində bütün taktiki və strateji hədəfləri yerinə yetirib. Dünya maliyyə bazarlarında mövcud olan qeyri-stabilliyə baxmayaraq, valyuta ehtiyatlarının təhlükəsiz və optimal idarə olunması təmin edilib, nağdsız ödənişlərin həcminin artması meyilləri davam edib, dövriyyədə olan kartların sayı 4 faiz, posterminalların sayı isə 1,7 dəfə artıb. Nağdsız ödənişlərin miqyasının stimullaşdırılması məqsədilə aidiyyatı qurumlar ilə birgə fəaliyyət davam etdirilib. Nağd pula olan tələbat vaxtında və tam ödənilmiş, emissiya altı ay ərzində 8,3 faiz artıb. Nağd pulun idarə edilməsinin ən müasir standartlarının formalaşdırılması və avtomatlaşdırılmış nağd pul mərkəzinin yaradılması üzrə fəaliyyət davam etdirilib. Mərkəzi Bankın fəaliyyətinin şəffaflığının daha da gücləndirilməsi istiqamətində də zəruri işlər görülüb, əhalinin maliyyə savadlığının artırılması üzrə mühüm tədbirlər həyata keçirilib.

Bank cari əməliyyat hədəflərini həyata keçirməklə yanaşı həm də strateji məqsədlərin proqramlaşması və reallaşmasına köklənib. Yeddi proqram üzrə otuzdan çox mühüm layihələr həyata keçirilir ki, bunlar da bankın makroiqtisadi və maliyyə sabitliyi sahəsində siyasətinin effektivliyinin və institusional potensialının artırılmasına, habelə qanunla nəzərdə tutulmuş digər funksiyalarının daha səmərəli reallaşmasına yönəlib.

İclası yekunlaşdıraraq ümumilikdə 2012-ci ilin 6 ayının nəticələrini müsbət qiymətləndirən E.Rüstəmov cari ilin ikinci yarısında Mərkəzi Bankın qarşısında duran vəzifələrə, strateji və taktiki hədəflərin yerinə yetirilməsinin təmin edilməsinə dair tapşırıq və tövsiyələrini verib: "Bundan sonra da fəaliyyətimizi elə davam etdirməliyik ki, Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyevin bəyan etdiyi kimi 2012-ci il də uğurlu illərdən biri olsun".

**BƏXTİYAR**

# Dövlət Qurumu son 6 ayın nəticələrini açıqlayıb

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi (SMPDK) 2012-ci ilin I yarısı ərzində görülmüş işlərlə bağlı hesabatını açıqlayıb. Komitədən verilən məlumata görə, hesabat dövrü ərzində nəqliyyat vasitələrində sürücülərin və sərnişinlərin təhlükəsizliyinin təmin edilməsi istiqamətində bir sıra işlər görülüb. Belə ki, BMT-nin Avropa İqtisadi Komissiyasının qaydaları əsasında standart layihələri hazırlanıb və sürücülərin, sərnişinlərin təhlükəsizliyinin təmin edilməsi istiqamətində 80 standart dövlət qeydiyyatına alınıb. Ümumilikdə 2012-ci ilin birinci yarımili üzrə 98 standart təsdiq edilib və dövlət qeydiyyatına alınıb.

Hesabat dövründə SMPDK tərəfindən 70 müəssisəyə, o cümlədən 29 yanacaqdoldurma məntəqəsinə, 5 maye qaz doldurma məntəqəsinə, 4 alkoqollu içki, 1 əlvan metal, 1 neft məhsullarının istehsalına, 30 tibbi fəaliyyət ilə məşğul olmağa lisenziya alınması üçün rəy verilməsi ilə əlaqədar metroloji ekspertiza keçirilib və müvafiq rəy hazırlanıb.

Bundan başqa, 107 ədəd yeni ölçmə vasitələrinin tipi təsdiq edilərək Azərbaycan ölçmə vasitələrinin Dövlət reyestrinə daxil edilib.

Son 6 ay ərzində Komitəyə 85 ixtira, 22 sənaye nümunəsinə dair iddia sənədi daxil olub. "Patent haqqında" qanunun 28-ci, 29-cu maddələrinə əsasən, iddia sənədləri üzrə ekspertiza aparılıb və nəticədə 112 ədəd ilkin ekspertiza sorğusu, 100 ədəd ekspertiza sorğusu qəbul olunub, ilkin ekspertizanın müsbət nəticəsi haqqında 44 ədəd bildiriş, iddia sənədi barəsində məlumatın dərci haqqında 45 qərar, patent verilməsi haqqında 5 qərar, 5 imtina bildirişi verilib.

Hesabat dövründə əmtəə nişanlarının və coğrafi göstəricilərin ekspertizası ilə bağlı AzPatent əmtəə nişanına dair 916 iddia sənədi, Madrid sazişi və protokolu çərçivəsində beynəlxalq əmtəə nişanlarına dair 1322 bildiriş daxil olub. Hesabat dövründə əmtəə nişanlarına dair 428 ilkin ekspertiza bildirişi, 10 ədəd ekspertiza sorğusu, əmtəə nişanının qeydiyyata alınması üçün iddia sənədinin baxılmağa qəbul edilməsi haqqında 532 arayış, əmtəə nişanının qeydiyyata alınması haqqında 468 qərar, 94 əmtəə nişanının qeydiyyata alınmasından imtina qərarı və 66 əmtəə nişanının qeydiyyata alınmasına dair ilkin imtina bildirişləri tərtib olaraq iddiaçılara təqdim edilib.

Daxil olmuş iddia sənədlərinin ekspertizasının nəticələri əsasında ilk yarımildə 508 ədəd əmtəə nişanına dair şəhadətnamə, 57 ədəd ixtira, 10 ədəd sənaye nümunəsi, 6 ədəd faydalı modelə dair patent qeydiyyata alınaraq sahiblərinə verilib.

**BƏXTİYAR**

# Ümumrusiya Azərbaycanlılar Konqresi gənc şairlərin azad edilməsi ilə bağlı müraciət ünvanlayıb

Ümumrusiya Azərbaycanlılar Konqresinin (ÜAK) Sankt-Peterburqdakı nümayəndəliyi və "Vətən" ictimai təşkilatı Sankt-Peterburqda yerləşən beynəlxalq təşkilatlara (MDB Parlamentlərarası Assambleyası, Avropa Komissiyasının Rusiyadakı nümayəndəliyi, Baltik dənizi Dövlətləri Şurası, Şimal ölkələri Nazirləri Şurası), həmçinin Sankt-Peterburqda akkreditə edilmiş diplomatik nümayəndəliklərə və digər ictimai-siyasi təşkilatlara məktub-müraciət göndərib. Müraciətdə azərbaycanlı gənc şairlərin İranda əsassız olaraq həbs edilməsinə münasibət bildirmək, eləcə də onların tezliklə azad edilməsi tələbi ilə çıxış etmək təklif olunur.

ÜAK-ın nümayəndəliyi və "Vətən" təşkilatı Azərbaycanın xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin katibi Çingiz Abdullayevin müraciəti ilə həmrəy olduqlarını bildirərək PEN-klub yanında Müdafiə Komitəsi tərəfindən dünya ictimaiyyətinə ünvanlanmış azərbaycanlı şairlərin azad edilməsi barədə müraciətə qoşulub.

ÜAK-ın nümayəndəliyi və "Vətən" ictimai təşkilatı xarici ölkələrdəki bütün Azərbaycan diasporlarına müraciət edərək adi insan hüquqlarını və beynəlxalq hüquq normalarını kobud şəkildə və əsassız olaraq pozan İran hakimiyyət orqanları tərəfindən ədalətsiz olaraq həbs edilmiş həmvətənlərimizi — istedadlı şairlər Fərid Hüseyn və Şəhriyar del Geranini (Hacızadə) dəstəkləməyə çağırır.

**S.MÜRVƏTQIZI**

# *Vitse-spiker:* "Əgər tənqid edirsənsə, o zaman özün də tənqidə dözümlü olmalısan"

"Heç zaman mücərrəd iqtidar-müxalifət dialoqunu qəbul etmək istəməmişəm. O mənada ki, konkret tərəflər, qurumlar, şəxslər bu və ya digər məsələ ətrafında toplaşa bilərlər, amma heç bir konkret məsələ göstərmədən iqtidar-müxalifət dialoqu deməyin özü sadəcə, bu məsələnin havada qalması deməkdir".Bunu mətbuata açıqlamasında vitse-spiker dilə gətirib. Bununla belə, o bildirib ki, təmaslar hər zaman var. B. Muradovanın sözlərinə görə, bu günlərdə mətbuat və Qeyri-Hökumət Təşkilatları nümayəndələri ilə keçirilən görüşlər buna bariz nümunədir. Vitse-spiker qeyd edib ki, dövlət siyasətinin həyata keçirilməsi, bu siyasətin ayrı-ayrı istiqamətlərində yeni mexanizm və formaların tapılması məhz bu təmasların nəticəsidir, həmçinin, siyasi partiyaların maliyyələşməsi ilə bağlı qanunun qəbul olunması, belə təmas və müzakirələrin nəticəsidir: "Əslində konkret məsələ ətrafında toplaşmaq da, fikir mübadiləsi də aparmaq olar, rəy söyləmək, bir-birini dinləmək də mümkündür. Bu, istənilən demokratik cəmiyyətin atributu və zamanın tələbidir. Biz hamımız bunu etməliyik və edirik".

Prezidentin son müşavirədəki çıxışında müxalifəti tənqid etməsi məsələsinə də toxunan vitse-spiker bir daha bildirib ki, hər gün dövlət başçısı da daxil olmaqla , bütün iqtidar nümayəndələrinin sağdan-soldan "atəşlərə" məruz qaldığı müşahidə edilir: "Ən müxtəlif səviyyələrdə təhqirdir də, təzyiqdir də, təhdiddir də. Lakin biz demirik ki, belə münasibət vəziyyəti dəyişir, yaxud yeni bir mərhələ yaranıb, yeni bir siyasət yürüdüləcək. Biz bunu günümüzün reallığı kimi qəbul edirik və düşünürük ki, bizim müxalifətdə və mətbuat sıralarında bəzi dairələr var ki, onlar bu cür fəaliyyəti məqbul hesab edirlər. Hətta buna da dözümlü yanaşırıq. İndi bütün bu illər ərzində cənab prezident bir dəfə konkret radikal, Azərbaycanın milli maraqlarına zidd münasibəti ilə seçilən məhdud dairələrin mövqeyi ilə bağlı ifadə etdiyi fikri sensasiyaya çevirmək istəyirlər. Bunu Azərbaycanda hansısa yeni bir "dalğanın", "represiya dalğasının" olacağı ilə bağlı xəbərdarlıq kimi qəbul edilir. Bu, qətiyyən belə deyil. Azərbaycan prezidenti Azərbaycan cəmiyyətinin əksər hissəsinin fikrini ifadə etdi, yeni bir şey demədi. Düşünmürəm ki, bu fikirlər indiyə qədər cəmiyyətdə səslənməyib. Bizim hər birimiz bu fikirləri səsləndirmişik və o getdikcə artıq ümumiləşmiş bir xarakter almışdı. Başqa necə adlandırmaq olar o hərəkətləri ki, Azərbaycanın BMT Təhlükəsizlik Şurasındakı fəaliyyətini şübhə altına ala biləcək bəyanatlar, fikirlər ortadadır, onu istehza, gülüş obyektinə çevirmək məqamları ortada olduqda, Azərbaycanın möhtəşəm təşkilatların tədbirlərinə ev sahibliyi etdiyi zaman bu tədbirin lazımi səviyyədə keçirilməsinə kömək, dəstək vermək, ən azı manеə olmamaq əvəzinə, ölkəni gözdən sala biləcək hərəkətlərə rəvac verən insanlara nə ad vermək olar? Cənab prezident məhz həmin adı səsləndirib".B.Muradova belə hesab edir ki, prezidentin mövqeyində hansısa bir şübhə doğura biləcək məqam yoxdur və Azərbaycan xalqının mütləq əksəriyyəti bu mövqeni dəstəkləyir: "Düşünür ki, doğrudan da bəzi fəaliyyəti Azərbaycan dövləti və xalqının mənafeyinə ziyan törədən insanların fəaliyyətinin adı belədir. Bundan niyə çəkinirlər, niyə narahat olurlar, öz adları qulaqlarına niyə qəribə səslənir?" Onun fikrincə, radikal müxalifət bu adı öz fəaliyyəti ilə əldə edib:

"Mən bunu bütün müxalifət düşərgəsinə deyil, konkret məhdud dairəyə aid edirəm. Heç kimi də bir çətir altına toplamaq niyyətində deyiləm. Bizim parlamentdə təmsil olunan müxalifətlə təmaslarımız var. Biz bütün məsələlərə bərabər şəkildə münasibət bildiririk. Bu partiya nümayəndələrinə hansısa məhdudiyyətlər qoyulmur, daha çox danışan, tənqid edən, fikir bildirən onlardır. Ona görə düşünürəm ki, fəaliyyətin hansı növünü məqbul hesab edirsənsə, orada da qayda və qanunlara əməl etməlisən. Öz ünvanına kəskin fikir eşitmək istəmirsənsə, özün də bu fikri işlətmə. Azərbaycanın legitim dövlət qurumları və onların fəaliyyətini daim şübhə altına alan, daimi onları gözdən salmağa yönəlik fəaliyyət göstərən insanlar özlərinə qarşı niyə belə yüksək diqqət və hörmət gözləyirlər? Əslinə qalsa, Azərbaycan cəmiyyəti və dövləti həddindən artıq bu insanların fəaliyyətinə dözümlü yanaşır. Onlar da Azərbaycan haqqında düşünməsələr də, ən azı öz imicləri haqqında düşünməlidirlər. Düşünməlidirlər ki, belə fəaliyyət onlara nə verib, siyasi uğurmu verib, hədəflərə yetməkmi verib, Azərbaycana hörmət və ehtirammı verib. Əgər tənqid edirsənsə, tənqidə də dözümlü olmalısan".

**KAMİL**

# *Oskar Arse:* "Azərbaycanın Meksika kimi dostu var"

Milli Məclisin sədri Oqtay Əsədov Meksika Birləşmiş Ştatları Konqresinin Deputatlar Palatasının sədri Oskar Arseni qəbul edib. Spiker qonağı Azərbaycan parlamentində görməyindən məmnun olduğunu bildirərək, belə bir inamı ifadə edib ki, bu səfər ikitərəfli münasibətlərimizin bütün sahələrdə inkişafına öz töhfəsini verəcək: "Ölkələrimiz arasında məsafənin böyük olmasına baxmayaraq, xalqlarımız və dövlətlərimiz arasında yaranan yaxın münasibətlərin nəticəsidir ki, bu, son dövrdə Meksika nümayəndə heyətinin ölkəmizə dördüncü səfəridir. Bizim üçün Meksika Birləşmiş Ştatları ilə əlaqələrin dərinləşməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, siyasi dialoqun davamlı şəkildə aparılması çox önəmlidir.

Dövlət və hökumət rəsmilərinin qarşılıqlı səfərləri münasibətlərimizin genişlənməsində əhəmiyyətli rol oynayır. Biz iqtisadi-ticarət əlaqələrimizin daha da inkişaf etdirilməsi niyyətindəyik. Bu mənada Azərbaycanda Meksika səfirliyinin açılması ümumi işin xeyrinə olardı".

Spiker eyni zamanda qeyd edib ki, iki ölkə arasında həyatın müxtəlif sahələrində əməkdaşlıq üçün geniş imkanlar mövcuddur: "Biz Meksikada Azərbaycan mədəniyyəti günlərinin təşkilini, Akapulko şəhərində Nizami Gəncəvinin abidəsinin təməlqoyma mərasiminin keçirilməsini yüksək qiymətləndiririk. Hazırda Akapulko və Sumqayıt şəhərlərinin qardaşlaşması istiqamətində iş aparılır.

Eyni zamanda, Azərbaycan Meksika ilə parlamentlər səviyyəsində əlaqələrini genişləndirmək əzmindədir. Hər iki ölkənin qanunverici orqanında dostluq qruplarının fəaliyyət göstərməsi təqdirəlayiqdir".

Spiker ötən həftə Meksika Senatının nümayəndə heyətinin ölkəmizdə səfərdə olmasını xatırlayaraq, bu cür təmasların əməkdaşlığımızın inkişafına xidmət etdiyini də söyləyib. O. Əsədov həmçinin, ötən il noyabrın 4-də Meksika Senatında və dekabrın 8-də ölkənin Deputatlar Palatasında Dağlıq Qarabağ və Xocalı soyqırımına dair sənədlərin qəbulunu yüksək dəyərləndirib.

Meksika parlamentinin hər iki palatasına və Meksika xalqına bu məsələdə həssaslıq və obyektivlik nümayiş etdirdiklərinə görə öz təşəkkürünü ifadə edib və ümidvar olduğunu bildirib ki, Meksika bundan sonra da Azərbaycanın ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ədalətli mövqe nümayiş etdirəcək. Meksika Birləşmiş Ştatları Konqresinin Deputatlar Palatasının sədri Oskar Arse ölkəmizə səfərindən və burada keçirdiyi görüşlərdən məmnun qaldığını söyləyib. Qonaq bildirib ki, onun ölkəsi Qafqazın bu bölgəsi ilə ikitərəfli əməkdaşlığı genişləndirməkdə maraqlıdır. Deputatlar Palatasının sədri parlamentlərarası əlaqələrin münasibətlərimizin daha da dərinləşməsinə mühüm töhfə verdiyini, təhsil, mədəniyyət, sənaye və energetika sahələrində də əməkdaşlıq üçün geniş imkanlar olduğunu qeyd edib. Qonaq Azərbaycanla əlaqələrin inkişafında xidmətlərinə görə Meksika Deputatlar Palatasının Azərbaycanla dostluq qrupunun rəhbəri Markos Perez Esquerin Prezident İlham Əliyev tərəfindən Fəxri diplomla təltif olunmasını yüksək qiymətləndirərək, münasibətlərimizin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyinə inamını söyləyib. "Azərbaycanın Meksika kimi dostu var" deyən qonaq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəsinin həmişə Azərbaycanın yanında olacağını vurğulayıb. Oskar Arse birmənalı şəkildə söyləyib ki, Dağlıq Qarabağ probleminin həllinə yardımçı olmaq üçün Meksika səylərini əsirgəməyəcək.

**KAMİL**

# *Asəf Hacıyev:* "Ermənilər verilən suallardan qaçmaq üçün Batumi konfransını tez tərk etdilər"

Gürcüstanın Batumi şəhərində "Avropa İttifaqı və onun avropalı qonşuları" adlı 9-cu beynəlxalq konfrans keçirilib. Konfransda Gürcüstan prezidenti, Moldovanı baş naziri və bir çox olkələrdən nümayəndələr, beynəlxalq təşkilatların təmsilçiləri, o cümlədən, Avropa Parlamentində Cənubi Qafqaz məsələləri ilə məşğul olan şəxslər, Avropa Xalqları Partiyasının prezidenti Vilfred Martins və başqa nüfuzlu siyasətçilər iştirak ediblər. Bunu mətbuata açıqlamasında Yeni Azərbaycan Partiyasının (YAP) beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin üzvü Asəf Hacıyev dilə gətirib. Millət vəkili beynəlxalq konfransa YAP-ın nümayəndəsinin də dəvət olunduğunu söyləyib. A.Hacıyevin dediyinə görə, tədbirdə müzakirələr Cənubi Qafqaz ölkələrinin Avropaya inteqrasiyası ətrafında gedib, o cümlədən, Gürcüstan prezidenti, Moldovanın baş naziri, Avropa Xalqları Partiyasının prezidenti və başqaları bu yöndə geniş çıxış ediblər: "Çox maraqlı məqam ondan ibarətdir ki, çıxışlar zamanı Cənubi Qafqazda mövcud vəziyyət təhlil olundu, xüsusən enerji təhlükəsizliyi məsələsinə



diqqət yetirildi. Fransa Senatının üzvü, xanım Natali Qule Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edildiyini bildirib. Ölkələri müqayisə edən Fransa Senatının üzvünün sözlərinə görə, bu gün fərq odur ki, bir ölkə digər ölkənin ərazisini işğal edib. Daha sonra konfrans öz işini iki bölmədə davam etdirdi. Bölmələrin iclası zamanı da Qule Xocalı soyqırımından danışdı və işğalın qəbuledilməzliyini vurğuladı. Yeni Azərbaycan Partiyasının nümayəndəsi olaraq mən də konfransda çıxış etdim. Bildirdim ki, Azərbaycanın həyata keçirdiyi siyasətdə Avropa məkanına inteqrasiya mühüm yer tutur. Yəni ölkəmizin xarici siyasəti, Avropa ölkələri ilə əməkdaşlıq məsələlərinə dair fikirlərimi bildirdim. Eyni zamanda, partiyamızın fəaliyyəti, beynəlxalq əlaqələri haqqında məlumat verdim. O cümlədən, YAP-ın AXP ilə əlaqələrindən danışdım".

Millət vəkili eyni zamanda çıxışında xüsusilə, Ermənistanın təcavüzkar siyasətindən ətraflı söz açaraq qeyd edib ki, Ermənistan uzun illərdir Azərbaycanın 20 faiz torpağını işğal edib, bunun nəticəsində bir milyon insan öz torpağından didərgin düşüb və ona görə Ermənistan işğal etdiyi torpaqları azad etməlidir: "Qeyd etdim ki, beynəlxalq təşkilatlar, o cümlədən BMT Təhlükəsizlik Şurası, ATƏT, Avropa Şurası, Avropa Parlamenti, İslam Konfransı Təşkilatı, GUAM ölkələri Azərbaycanın haqlı mövqeyini dəstəkləyir, ölkəmizin ərazi bütövlüyünün qorunması istiqamətində sənədlər qəbul ediblər. Bu isə artıq dünyanın əsl həqiqətləri qəbul etdiyini göstərir. Amma təəssüf ki, işğalçı Ermənistan bu qərarlara əməl etmir. Hesab edirik ki, beynəlxalq təşkilatlar bu məsələyə öz münasibətini bildirməli və münaqişə öz həllini tapmalıdır. Onu da qeyd edim ki, Ermənistanın xarici işlər və təhsil nazirləri də tədbirdə iştirak edirdilər. Amma onlar tez getdilər, heç plenar iclasda da iştirak etmədilər. Bəlkə də, bunun səbəbi ondan ibarət idi ki, onlar başa düşürdülər ki, Azərbaycan nümayəndələrinin orada olması Qarabağ məsələsinin müzakirəsinə səbəb olacaq".

A.Hacıyevin bildirdiyinə görə, nəticədə ermənilər verilən suallardan qaçmaq üçün konfransı tez tərk ediblər:

"Ümumiyyətlə, belə bir beynəlxalq tədbirə YAP-ın dəvət olunması partiyamızın nüfuzunun artmasını və beynəlxalq əlaqələrinin daha da genişləndiyini göstərir. Bu konfrans birinci dəfə deyil, hər il keçirilir və ilk dəfədir ki, YAP bu beynəlxalq tədbirdə iştirak edir. Bu fakt Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq müstəvidə rolunun artmasının göstəricisidir".

**Kamil HƏMZƏOĞLU**

# "İctimai Palatanın dağılmasının məsuliyyəti Müsavatın üstündə qalacaq"

"Prezident seçkilərində vahid namizədin müəyyənləşdirilməsinə Açıq Cəmiyyət Partiyasının müdaxiləsi Müsavat və Xalq Cəbhəsi partiyaları arasındakı münasibətləri gərginləşdirib". AXCP və Müsavatın təmsil olunduğu İctimai Palatanın (İP) Koordinasiya Şurasındakı (KŞ) mənbənin APA-ya verdiyi məlumata görə, Açıq Cəmiyyət Partiyasının (ACP) lideri Rəsul Quliyevin partiyasına və Demokratik Cəmiyyət Uğrunda Müqavimət Hərəkatına (DCUMH) İctimai Palataya daxil olmaqla bağlı təlimat verib. Mənbə bildirib ki, R. Quliyevin təlimatına əsasən ACP-nin yeni sədri Sülhəddin Əkbər DCUMH-da partiya liderinin prezident seçkisində hərəkatın vahid namizədi kimi təqdim olunması, həmçinin hərəkatın da İctimai Palataya daxil olması ilə bağlı müzakirələrə başlayıb. Lakin hərəkatın digər təsisçiləri tərəfindən bu təklif etirazla, hətta ciddi narazılıqla qarşılanıb. Bundan sonra isə R. Quliyev təkidlə hərəkatdan etiraz aksiyalarına başlamağı tələb edib. Onun fikrincə, bu aksiyalar hərəkatın beynəlxalq nüfuzunu yüksəlməsinə, sonda isə ölkədə siyasi aktivliyə gətirib çıxara biləcək. Onun əsaslandırmasına görə, aksiyalar xarici mətbuatın diqqətini çəkə bilər ki, bu da hərəkatı İctimai Palata üçün də cəlbedici edə bilər. R. Quliyevin bu istəyi də hərəkatın İdarə Heyətində məqbul hesab edilməyib. Ona görə də ACP lideri son açıqlamalarının birində hərəkatı yarıtmaz fəaliyyətdə ittiham edib.

Hazırda İctimai Palataya daxil olmaq üçün AXCP sədri Əli Kərimli ilə aktiv müzakirələr keçirən ACP lideri və sədrini Əli Kərimli və AXCP-nin digər funksionerləri ciddi dəstəkləyirlər. Lakin R. Quliyevin İctimai Palataya gəlməsi Müsavat Partiyasının başqanı İsa Qəmbər tərəfindən birmənalı etirazla qarşılanıb. R. Quliyevin təlimatına əsasən isə Sülhəddin Əkbər davamlı olaraq, İP KŞ-nın üzvləri ilə görüşür və onları inandırmağa çalışır ki, ACP-nin yəni, R. Quliyevin İP-ə gəlişi müxalifətin bu qanadının güclənməsinə səbəb ola bilər.

AXCP-nin adının çəkilməsini istəməyən funksioneri isə APA-ya belə müzakirələrin getdiyini təsdiqləyib. O, AXCP-nin Rəsul Quliyevin İP-yə gəlməsini dəstəkləməsinin səbəbini də açıqlayıb : "İndiki halda İctimai Palatada Əli bəyin prezidentliyə vahid namizəd kimi təsdiqlənməsi mümkün görünmür. Çünki Müsavat və onu dəstəkləyənlər İsa Qəmbərin vahid namizədliyindən vaz keçməyəcəklər. Pənah Hüseynin vahid namizəd məsələsini bu qədər erkən ortaya atması da bununla bağlıdır. Rəsul Quliyevin İctimai Palatada təmsil olunması məsələsi gündəmə gələn kimi bunlar İP-nin vahid namizədinin müəyyənləşməsini istədilər. Çünki bilirlər ki, ACP-nin gəlişi ilə qüvvələr nisbəti dəyişəcək. Rəsul Quliyev heç vaxt İsa Qəmbəri dəstəkləməyəcək, özünün ölkəyə gəlib namizəd olmaq şansı olmadığından Əli Kərimlini dəstəkləyəcək. Bu isə Müsavatın faktiki təklənməsi və qəbul olunan qərarla razılaşması deməkdir. Əks təqdirdə, İctimai Palatanın dağılmasının məsuliyyəti Müsavatın üstündə qalacaq".

# Dünya media monopoliyası: reallıqların göstərilməsinə yoxsa gizlədilməsinə xidmət edir

Son yüz ildə kütləvi informasiya vasitələri (KİV) cəmiyyətin bütün sahələrində ən təsirli vasitələrdən birinə çevrilmişdir. Məhz təsiretmə imkanlarına görə mətbuatı dördüncü hakimiyyət orqanı da adlandırırlar. Yarandığı ilk mərhələdə yazılı mətbuat (qəzet, jurnal), bir qədər sonra efir məkanı (radio, televiziya), yeni minilliyə doğru isə internet insan həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Günümüzdə kütləvi informasiya vasitələri insanların həyat tərzini müəyyən edir. Bundan başqa KİV ölkədaxili proseslərə olduğu kimi dövlətlərarası və beynəlxalq münasibətlərə də mühüm təsir imkanlarına malikdir.

Azad mətbuat demokratiyanın mühüm prinsiplərindən biridir. Hazırda dünyanın informasiya təminatından olduqca asılı olduğunu nəzərə aldıqda demokratik və ədalətli mətbuatın üzərinə böyük iş düşür. Tarix göstərmişdir ki, mətbuatda yayılan hər hansı bir informasiya (və ya dezinformasiya) hətta dövlətlərarası münaqişələrə səbəb ola bilir. Mətbuat iqtisadi böhranlarda da ən mühüm faktordur. Ümumiyyətlə iqtisadi proseslər, o cümlədən informasiya məkanından birbaşa asılı olan maliyyə əməliyyatları mətbuatda gedən məlumatlardan sinxron asılıdır. Bütün birjalarda əsas maliyyə möhtəkirlikləri əvvəlcə mətbuat vasitəsilə yayılan informasiya hücumu ilə başlayır.

Beləliklə, bütün siyasi və iqtisadi proseslərdə mətbuatın artan rolu dünya miqyasında KİV-ə olan münasibəti dəyişdi. Keçən əsrin 60-70-ci illərinədək dünyada mətbuat çoxqütblü idi və təmərküzləşməmişdi. Ayrı-ayrı ölkələrdə mühüm nəşrlər dünya informasiya axınını təşkil edirdi. Əsrin sonlarına doğru isə dünya üzrə medianın müəyyən qrupların əlində cəmlənməsi başlandı. Keçən dövr ərzində yaranmış şəraitdə isə artıq siyasiləşmiş mətbuat informasiya təminatı deyil, informasiya təzyiqi vasitəsi funksiyasını yerinə yetirməyə başladı. Bu gün beynəlxalq münasibətlər sistemində informasiya müharibəsi ən böyük mübarizə meydanıdır. Dövlətlər arasında, şirkətlər arasında, hətta fərdlər arasında informasiya müharibəsi mətbuat vasitəsilə aparılır. Bütün bunlar reallıqdan doğan proseslərdir və təbii qarşılanır. Lakin məsələnin bir də görünməyən tərəfləri var.

Hazırda qlobal media orqanlarının böyük hissəsi 5 böyük şirkətin nəzarətindədir: "Time-Warner" (CNN, TNT kanalları, Time jurnalı), "Walt Disney Corporation" (ABC telekanalı), "News Corporation" (The Sun, The Times, The Sunday Times, New York Post qəzetləri, The Wall Street Journal, Fox telekanalı) "Viacom" və "Bertellsmann"(RTL Group). Bunlardan ilk dördü ABŞ, sonuncu isə alman media holdinqidir. Sonrakı yerlərdə isə "Sony", "General Electric", "Seagram" kimi konqlomeratlar gəlir. Bu şirkətləri öz gəlirlərinə, işçilərinin sayına, əhatə etdiyi regiona görə daha çox media imperiyaları adlandırmaq olar. Misal üçün, 2011-ci ilin məlumatlarına görə "Walt Disney Corporation"-nin 156 min nəfər, "Time-Warner"in 34 min nəfər, BBC tenekanalının 23 min nəfər işçisi var. "Bertellsmann"-in sahib olduğu "RTL Group" Avropanın 11 ölkəsində 45 televiziya, 32 radionun səhmdarıdır.

"Bertelsmann" dünyanın ən böyük ingilis dilli kitab nəşri şirkəti "Random House"un, eləcə də Almaniyada "Stern" jurnalının və "Der Spiegel" nəşrinin səhmlərinin bir hissəsinin sahibidir.

Avropanın ən böyük media inhisarçılarından biri də "Axel Springer AG" (Berlin) şirkətidir. Şirkət qitənin 36 ölkəsində 200-dən çox qəzet və jurnal, televiziya və radio kanalına sahibdir. "Axel Springer AG" Almaniyanın gündəlik qəzet bazarının təxminən dörddə birinə sahibdir. Bunların arasında Avropanın ən yüksək tirajlı "Bild" qəzeti də var. Ona görə də məhz bu qəzetin hədəfində olan hər hansı bir mövzu günlərcə Avropanın diqqətindən düşmür. Hədəfdə olan mövzu müxtəlif ölkələrin fərqli qəzetlərində mütəmadi olaraq işıqlandırılır. Sadə oxucularda həmin mövzunun nə qədər aktual olması barədə ilkin təəssürat yaranır. Lakin qəzetlərin daxil olduğu media monopoliyasını nəzərə aldıqda vahid mərkəzdən idarə olunan təlimatın nəticəsi olduğu açıq-aydın görünür. Britaniya, yaxud Qərbin digər ölkələrində də nüfuzlu media konqlomeratların inhisarçı mövqeləri oxşar vəziyyətin yaranmasına səbəb olur.

Yuxarıda adını çəkdiyimiz media nəhəngləri televiziya, radio, qəzet, jurnal kimi ənənəvi sahələrlə yanaşı kino çəkilişindən tutmuş kitab çapınadək bütün auditoriyalar üçün informasiya təminatı vasitələrinə sahibdirlər. Bütün dünya ölkələrinə və müxtəlif sosial təbəqələrə təsir imkanı baxımından əvəzedilməz vasitə olan Hollivud filmləri bu şirkətlərin əlindədir. Misal üçün "Warner Brothers" və "Newline Cinema" kino studiyaları "Time-Warner" şirkətinə, "Disney Production", "Miramax", "Buena Vista" — "Walt Disney Corporation"-ə, "Columbia Pictures" —"Sony"-yə, "Universal Pictures" — "Seagram"-a, "Paramount Pictures" — "Viacom" şirkətinə məxsusdur. İstənilən kino həvəskarı üçün bu adlar tanışdır. Bütün televiziya kanallarının gündəlik efirində bu kino studiyaların filmləri aparıcı yer tutur.

Media nəhənglər uşaqları da yaddan çıxartmayıb. Uşaqlar üçün multfilm qəhrəmanlarının da yaradıcıları onlardır. Mickey Mouse — "Walt Disney Corporation" şirkətinin, Tom və Ceri, Superman, Betman "Time-Warner"-in, Cartoon Network personajları "News Corporation"-in yaratdığı qəhrəmanlardır. Bu gün kino mütəxəssisləri də həyəcan təbili çalırlar ki, artıq multfilmlər uşaqların vaxtından əvvəl böyüməsinə çalışırlar və ümumilikdə yaş kateqoriyasına uyğun deyil. Beləliklə, hələ uşaqlıqdan insanların hafizəsinə sevimli əyləncə kimi daxil olan bu media imperiyalar bütün sonrakı həyatı boyu insanlara təqdim etdiyi informasiyaya inandırmaq üçün bünövrə hazırlayırlar.

Digər tərəfdən əksər qlobal mətbu orqanları dünyanın ən güclü xəbər agentliklərinin məlumatlarını alıb ötürməklə məşğuldurlar. "Reuters" (London), "Associated Press" (Nyu-York), "CNN" (Atlanta), "New York Times Servis" (Nyu-York), "Agence France-Press" (Paris) xəbər agentlikləri planetdə böyük şəbəkə qurublar və dünya ictimaiyyətini informasiya ilə onlar təmin edirlər. Məsələn, "Reuters" agentliyinin 94 ölkədə 200 şəhərdə bürosu var, "Associated Press"-in 120 ölkədə 243 bürosu var və 1700-dən çox qəzet, 5000-dən çox televiziya və radio bu xəbər agentliyinin məlumatlarını efirə ötürür. Belə olan halda isə informasiya təminatı birtərəfli və daha çox məqsədli olur. Dünya ictimaiyyəti bir sıra hallarda reallıqla deyil, bu agentliklərin istədiyi şəkildə məlumatlandırılır. Müşahidələr göstərir ki, bu media nəhənglərin məqsədlərinə uyğun gəlməyən xəbərlərin dünya ictimaiyyətinə çatdırılması praktiki olaraq mümkün deyil.

Media qurumların fəaliyyətində xüsusi bir məqam da nüfuzlu media rəhbərlərinin Bilderberq klubunun ənənəvi iştirakçıları olması ilə bağlıdır. İctimaiyyət üçün fəaliyyəti açıq olmayan Bilderberq klubu daha çox siyasi prosesləri yönləndirmək üçün Qərbdəki bəzi dairələrin yaratdığı bir formatdır. Başlıca məqsədi həqiqi informasiya təminatı olan kütləvi informasiya vasitələrinin gizli təşkilatların işində iştirakı isə medianın plüralizm və şəffaflıq prinsipləri ilə uyğun gəlmir.

Bilderberq klubunun Məsləhət qrupunun sədri olan Devid Rokfellerin 1991-ci ildə Baden Badendə klubun illik iclasındakı sözləri dünyanın nüfuzlu media qurumlarının bu pərdəarxası siyasi proseslərdə iştirakını təsdiq edir: "Biz Vaşinqton Post, Nyu York Times, Time jurnalına və digər böyük nəşrlərə minnətdarıq. Bu nəşrlərin direktorları artıq 40 ilə yaxındır ki bizim yığıncaqlarımızda iştirak edir və bu illər ərzində konfidensiallıqla bağlı öz vədlərinə hörmət edirlər. Əgər biz o illərdə ictimaiyyətin qarşısında işıqlandırılsaydıq dünya ilə bağlı planlarımızı yerinə yetirmək imkanımız olmayacaqdı".1

Maraq üçün qeyd edək ki, mətbuata sızan məlumatlara görə 2012-ci ildə Bilderberq klubunun iclasında "Washington Post Company", "The Economist", "Financial Times", "Le Monde", "Bonnier AB" (İsveçrə), "Der Standard" (Avstriya) və "Hürriyyət" (Türkiyə) qəzetlərinin rəhbər şəxsləri iştirak etmişlər. Ona görə də yaxın vaxtlarda dünyanın siyasi mənzərəsi ilə bağlı bu nəşrlərdə dərc oluna biləcək materiallar xüsusi həssaslıq tələb edir.

Beləliklə, araşdırmalar göstərir ki, dünyanın kino istehsalı, televiziya verilişləri prodakşnları, televiziya kanalları, kitab nəşriyyatları, qəzet və jurnallarının əksəriyyəti təxminən 50-yə yaxın şirkətin əlində cəmləşib. İstənilən demokratik standartlara əsasən medianın bu cür təmərküzləşməsi qəbuledilməzdir. Maraqlıdır ki, kino çəkilişindən tutmuş qəzet və jurnal nəşrinə qədər media sahəsini əhatə edən bu şirkətlərin səhmdarları arasında bank və digər maliyyə institutları da iştirak edir. Beləliklə də, iri bankirlər və ya biznes sahibləri həm də media maqnatları olaraq qlobal çərçivədə siyasi və iqtisadi proses və trendlərə istiqamət vermək imkanına malikdirlər. Belə olan halda isə gündəlik həyatımızda aldığımız informasiyanın məqsədli olub-olmaması sual doğurur.

**Ərəstü HƏBİBBƏYLİ**
**iqtisad elmləri üzrə fəlsəfə doktoru**
**www.newtimes.az**

“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə

# Bir qəzetin tarixçəsi: “Qırmızı Gəncə”dən “Gəncənin səsi”nə qədər




“Gəncənin səsi” qəzeti 1920-ci ilin may ayında, olduqca çətin bir dövrdə “Qırmızı Gəncə” adı ilə fəaliyyətə başlayıb. Bu barədə bizimlə söhbətində “Gəncənin səsi” qəzetin baş redaktoru Rəfiqə Sadıqova bildirib. Həmin dövrün ictimai-siyasi vəziyyətinə diqqət çəkən baş redaktor bildirib ki, Azərbaycanı qırmızı imperiya yenicə zəbt etmişdi: “Hər yerdə hərc-mərclik, özbaşınalıq hökm sürürdü. Belə bir şəraitdə fəaliyyətə başlayan iqtidar qəzetinin qarşısında olduqca çətin və mürəkkəb vəzifə dururdu. Yeni quruluşu təbliğ etmək, o dövrün qarışıqlığında duruş gətirib, qarşıya qoyulan vəzifənin öhdəsindən (xalqın milli ruhunu qırmadan) gəlmək, həm də Azərbaycan türklərinin özəlliklərini gözləmək o qədər də asan məsələ deyildi. Bu çətinliklər “Qırmızı Gəncə”nin də qarşısına hər an çıxırdı. Elə buna görə də cəmi 5-6 ay fəaliyyət göstərib, 30-a yaxın nömrəsi işıq üzü gördükdən sonra qəzet həm adını, həm də ilk redaktoru Məmmədkazım Ələkbər oğlu Ələkbərlini itirdi. Sonra həmin ilin dekabrında onun yerini “Füqəra sədası” adı ilə nəşrə başlayan mətbu orqan tutdu. Bu ad altında çıxan qəzetin də fəaliyyəti uzun çəkmədi. 1923-cü ildə redaktorun işində “qüsur” tapıldı və o, vəzifəsini də, qəzeti də “bada” verdi.

Ümumiyyətlə, bir tərəfdən dövrün qarışıqlığı, digər tərəfdən də bir-birinin işinə mane olan və bəzən də onu çətinə salan inqilab və qəza komitələrində gedən çəkişmələr, ayrı-ayrı yerlərdə baş verən hərc-mərcliklər bütün sahələrdə olduğu kimi, redaksiyaların da işini olduqca çətinləşdirirdi. Lakin bütün bunlara baxmayaraq mətbuat işini davam etdirir, öz dövrünün salnaməsini yaradırdı”.

R.Sadıqovanın dediyinə görə, 1925-ci ilin əvvəllərində şəhər qəza komitələrinin strukturunda aparılan dəyişikliklərlə əlaqədar qəzetin fəaliyyəti məhdudlaşdırılır. O bildirib ki, 1929-cu ildən ayda iki dəfə çıxmaqla “Zərbə” adı ilə fəaliyyət göstərən qəzet 1935-ci ildən sonra yenidən adını dəyişərək əvvəlcə “Kirovabad bolşeviki” sonra isə “Kirovabad fəhləsi” adlarını daşıyır: “Amma 1953-cü ilin yanvarında vətənpərvər







qüvvələr şəhərimizin qədim adının bərpasına çalışmaqla, eyni zamanda Gəncə vilayətinin yaranmasına nail olurlar. Bununla da qəzetimizin adı dəyişdirilib “Gəncə kommunisti” (vilayət qəzeti) olur. Lakin vilayətinin ömrü kimi, qəzetin də ömrü az olur. Cəmi 4-5 ay bu ad altında çıxan qəzetin adı yenidən dəyişirilərək “Kirovabad kommunisti” adlandırılır və düz 37 il bu adı daşıyır. Nəhayət, Gəncənin adının bərpası ilə əlaqədar olaraq 1990-cı il yanvarın 1-dən etibarən qəzetimiz “Gəncənin səsi” adı ilə fəaliyyətini davam etdirməyə başladı. İmperiyapərəst qüvvələr bu səsi batırmağa nə qədər səy göstərsələr də buna nail ola bilmədilər. Bütün respublika qəzetləri susdurulan zaman sovet qoşunlarının Azərbaycanda törətdikləri yanvar qırğınını, hadisənin elə ilk günlərində aləmə car çəkən qəzetlərdən biri də məhz “Gəncənin səsi” oldu. İttifaq hökuməti rəhbərlərinin yenidənqurma pərdəsi arxasında xalqımıza qarşı apardıqları ikibaşlı siyasətin əleyhinə ən kəsərli sözləri deyən də “Gəncənin səsi” qəzetinin əməkdaşları oldular. Həmin günlərdə Azərbaycan Jurnalistlər İttifaqının səyyar plenumu Gəncədə keçirilib. Odur ki, əlimizdə kifayət qədər hadisə yerindən çəkilmiş şəkillər və faktlar var. O zaman “Gəncənin səsi” qəzetinin baş redaktoru Sabir Hacıyev idi. Bir çox fəxri adların və mükafatların sahibi olan Sabir Hacıyev “Gəncənin səsi”nə 35 il rəhbərlik edib. Yeri gəlmişkən ayrı-ayrı vaxtlarda “Gəncənin səsi”nə Abdulla Şərifov, Kəramət Tağıyev, Fərid Cəfərov, Zahid İsmayılov redaktorluq ediblər. Yaxşı yadımdadır, Gəncə adı qadağan olunduğu zamanlarda yazılarımızda Gəncə sözünü işlətməyə çalışırdıq. Qəzəbli senzuranın gözündən yayınıb qəzet səhifəsinə çıxan bu sözün sevinci uzun zaman bizləri tərk etməzdi”.

Baş redaktor bildirib ki, ötən əsrin 90-cı illərində Gəncənin adı özünə qayıtsa da sevincimizi doya-doya yaşaya bilmədik: “Ölkədə yaranan xaos, qanlı yanvar qırğınları bu sevincin üzərinə kölgə saldı. Bir zamanlar çox böyük tirajla çıxan qəzet baxımsız qaldı. Hətta tirajı 300 nüsxəyə qədər endi. 90-cı illər “Gəncənin səsi” qəzetinə söz verilmədiyi, tənhalaşdığı bir zaman idi. Sonralar, yəni 2011-ci ilin əvvəllərinə qədər 600 tirajla çap olunduq. Böyük ənənəyə malik olan bir qəzetin oxucusuz qalması hamını ruhdan salmışdı. İş otaqlarımızın, əməkdaşlarımızın da sayı tirajımızla bərabər azalırdı. Bütün bunları əbəs yerə xatırlamırıq... Bu gün Gəncə çox böyük yüksəlişdədir. Genişmiqyaslı quruculuq işləri, aparılan abadlıq, şəhərin yeni libası olan tikililər, yaşıllıq, gül-çiçək, tarixi abidələrimizə qayğı, istehsalın artması, yeni iş yerlərinin açılması, Şeyx Nizamiyə indiyə qədər olmayan böyük məhəbbət, illərlə yığılıb qalan problemlərin az bir zaman kəsiyində həllini tapması bizi çox sevindirir. Gəncə çox dəyişib, tarixiliklə müasirliyin harmoniyasından yoğrulan möhtəşəm bir gözəlliyə sahib olub!.. Adı Azərbaycanın tarixi keçmişinə, dövlətçilik salnaməsinə, mədəniyyətinə qızıl hərflərlə yazılan Gəncə əvvəlki şöhrətini yenə özünə qaytarıb. Bölgənin və bütövlükdə Cənubi Qafqazın ən gözəl şəhərlərindən birinə çevrilib. Bu gün Gəncənin hansı prospektinə, hansı küçəsinə, hansı məhəlləsinə baş çəksən dəyişikliyin, inkişafın, tərəqqinin şahidi olarsan!.. Şəhərimiz gözlərimiz qarşısında sürətlə dəyişir. Ayları, illəri qabaqlayan bu yüksəlişin sevinci ürəyimizə təpər, qolumuza qüvvət, ruhumuza xoş ovqat bəxş edir.

**(Ardı var)**

**Bəxtiyar MƏMMƏDLİ**

**Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub**

## *Zeynal Məmmədov:* “Bizim futbolçular harınlayıblar”

“BIÇAQ VURSALAR, QANIM ÇIXMAZ. KOMANDAMIZIN OYUNÇULARININ SİFƏTİNƏ BELƏ BAXMAQ İSTƏMİRƏM”

**“Bakı”nın vitse-prezidenti Zeynal Məmmədov klubdakı baş məşqçi dəyişikliyi və komandanın Avroliqadakı çıxışı ilə bağlı Qol.Az saytının suallarını cavablandırıb.**



***— Baş məşqçi postunda Novruz Əzimovu Bojidar Bandoviçin əvəzləməsinə Avroliqadakı uğursuzluq səbəb oldu?***

— Səbəb deyəndə ki, dəyişiklik etmək qərarına gəldik. Novruz Əzimov öz istəyilə istefaya getdi. O, bundan sonra klubumuzda idman direktoru vəzifəsində çalışacaq.

***— Avroliqadakı uğursuzluq deyəsən, sizdə möhkəm ruh düşkünlüyü yaradıb.***

— Ruh düşkünlüyü nədir? Bıçaq vursalar, qanım çıxmaz. Yəni, hazırda belə bir vəziyyətdəyəm. Futbolçularımızın sifətinə belə baxmaq istəmirəm. Onlar ilk mərhələni baş məşqçi olmadan da keçməliydilər. Deyə bilmərəm ki, bizim günahımız yoxdur. Mən heç vaxt özümü qırağa çəkməmişəm. Ola bilər, özümü qınayacağam ki, niyə hücumçu gətirmədik. Lakin bir şey bilirəm ki, islahatlar olacaq. Özü də necə lazımdır. “Mura” kimi büdcəsi iki yüz min avro olan bir klubu uda bilməyən futbolçular haqda ayrı nə demək olar? Mən futbolçuların özlərinə də demişəm. Onlar artıq harınlayıblar.

***— Konkret kimlərin komandadan uzaqlaşdırılacağınız gözlənilir?***

— Biz baş məşqçi səlahiyyətlərini Bojidar Bandoviçə vermişik. Onun da verdiyi qərarlara əsasən kimlərin gedib, kimlərin qalacağını müəyyənləşdirəcəyik. Novruz Əzimovun yerli futbolçuları tapmasında əməyi böyükdür. Artıq bazamızda yerli istedadlı futbolçular yetişməkdədir.

***— Avrokuboklarda çıxış edən klublarımıza nə arzulayardınız?***

— Hər zaman klublarımızın uğurlu çıxışlarına sevinmişəm. “Neftçi”nin uğuru bizi çox sevindirdi. “Xəzər Lənkəran” və “İnter”ə uğurlar arzulayıram. Həqiqətən də ürəyimiz onlarla birgə döyünəcək. İyulun 24-də “Neftçi”nin cavab qarşılaşması olacaq. İnanıram ki, “Neftçi” bu mərhələni adlayacaq.

**Əli HƏYATİ**

## *Maradona:* "Rikelme "Boka Xunyors"a xəyanət etdi"

Argentina futbolunun canlı əfsanəsi Dieqo Armando Maradona yenidən diqqət mərkəzinə düşüb.

“Perros de la Calle”yə danışan Maradona “Boka Xunyors”un aparıcı oyunçusu Roman Rikelmenin komandadan ayrılacağı ilə bağlı qərarını kəskin etirazla qarşılayıb:

“Rikelmeni bu qərarına görə qınayıram. O, Argentinanın köklü klublarından olan “Boka Xunyors”a xəyanət etdi. Mənim Rikelme ilə heç bir problemim yoxdur. Bu məsələ ilə bağlı onunla söhbətim də olmayıb. Sadəcə olaraq Rikelmenin bu qərarını anlamadım”.



Qeyd edək ki, Libertadores kubokunun finalında “Korintians”a məğlub olan “Boka Xunyors”un 34 yaşlı futbolçusu görüşdən sonra komandadan ayrılacağını açıqlamışdı.

## İtalyansayağı təbrik



İtalyanların çox maraqlı bir adəti var. Bizdən fərqli olaraq, onlar yaxınlarının, doğmalarının yubileyini, uğurlu işini hamıdan gec təbrik etməyi xoşlayırlar. Mən də bu dəfə italyansayağı təbrikdən istifadə etmək qərarına gəldim. Hərçənd, haqqında yazacağım şəxs — Milli Olimpiya Komitəsinin vitse-prezidenti, filologiya elmləri doktoru Çingiz Hüseynzadə uğurlu fəaliyyətinə və yüksək insani keyfiyyətlərinə görə, ilin istənilən fəslində, istənilən ayında və istənilən günündə xoş sözlərə, təbriklərə layiqdir.

Çingiz müəllimlə tanışlığım 15 il əvvələ təsadüf edir. 1997-ci ildə cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçilərkən, çox uzaqgörən addım ataraq, vitse-prezident postunu təşkilatçılıq işlərində xüsusi bacarığa malik olan Çingiz Hüseynzadəyə tapşırdı. Həmin vaxt Azərbaycan Dövlət Televiziyasında çalışırdım. Yeni vəzifədə Çingiz Hüseynzadədən ilk dəfə müsahibə götürmək şərəfi də məhz mənə qismət oldu.

Ümumiyyətlə, Milli Olimpiya Komitəsinə İlham Əliyevin prezident seçilməsi olimpiya hərəkatında və idmanımızda yeni mərhələnin başlanğıcı kimi yadda qaldı. İlk gündən cənab İlham Əliyev tərəfindən MOK qarşısında 3 vəzifə qoyuldu: birincisi, o zaman Azərbaycandan çıxıb xaricə getmiş bütün idmançıları, məşqçiləri, idman mütəxəssislərini geri qaytarmaq, ikincisi, MOK-un beynəlxalq əlaqələrini möhkəmləndirmək, üçüncüsü isə Azərbaycanda idmanın, olimpiya hərəkatının maddi-texniki bazasını yaratmaq və gücləndirmək. Qısa zaman ərzində MOK rəhbərliyi başda İlham Əliyev olmaqla, qarşıya qoyulan bütün məqsədlərə nail oldu. İdmançılarımızın Avropa və dünya miqyaslı yarışlarda uğurları günügündən artmağa, MOK-un Beynəlxalq Olimpiya Komitəsi, milli olimpiya komitələri və digər nüfuzlu idman təşkilatları ilə əlaqələri möhkəmlənməyə və ölkəmizdə beynəlxalq olimpiya hərəkatı geniş vüsət almağa başladı. Təbii ki, bütün bu işlərdə Çingiz Hüseynzadənin də xidmətləri danılmazdır. Yaxından bələd olduğum üçün tam əminliklə söyləyə bilərəm ki, bu şəxs üçün Azərbaycanın adı, yüksəlişi, uğurları hər şeydən vacibdir. MOK-un vitse-prezidenti olmasına baxmayaraq, o, çox sadə, təvazökar insandır. Onunla birgə Azərbaycan nümayəndə heyətinin tərkibində bir neçə dəfə olimpiadada iştirak etmişik. Olimpiadalar zamanı Çingiz müəllimin səmimiyyəti, vətənpərvərliyi məni yaxşı mənada təəccübləndirib. Beynəlxalq Olimpiya Komitəsinin rəsmiləri, xarici ölkələrin idman federasiyalarının rəhbərləri ilə görüşlərdə onun ölkəmizi necə canfəşanlıqla təbliğ etməsini, təkcə idman deyil, digər sahələrdə də böyük uğurlar qazandığımızı söyləməsini görmüşəm. Eyni zamanda Çingiz müəllim diqqətcil insandır. Heç vaxt yaş fərqini əsas gətirmir, böyüklə böyük, kiçiklə kiçik kimi davranır. Odur ki, Çingiz Hüseynzadə həmişə gənclərlə işləməyə üstünlük verir, onların irəliləyişə nail olmaları üçün lazımi köməkliyini göstərir.

Çingiz müəllimin daha bir müsbət keyfiyyəti barədə də söz açmaq istəyirəm. MOK-də göstərdiyi məqsədyönlü fəaliyyət nəticəsində topladığı təcrübə ona yaxşı analiz apararaq, düzgün mülahizələr yürütməyə əsas verib. Onun olimpiada ilə bağlı söylədiyi proqnozlar bir qayda olaraq, özünü doğruldur. Yaxşı yadımdadır ki, düz bir il əvvəl, 2011-ci ilin iyulunda o, mətbuata London Yay Olimpiya Oyunları haqqında müsahibə vermişdi. Həmin vaxt olimpiadaya cəmi 4 idmançımız lisenziya qazanmışdı. Hadisələrin gedişini düzgün təhlil edən Çingiz Hüseynzadə isə belə proqnoz etmişdi: “Ümid edirəm ki, bu il bizim lisenziyaların sayı 50-ni ötəcək”. Elə deyilən kimi də oldu. Bir neçə gündən sonra Londonda start götürəcək Yay Olimpiya Oyunlarında ölkəmizin şərəfini 53 idmançı qoruyacaq. Bu isə o deməkdir ki, MOK-un vitse-prezidentinin irəli sürdüyü mülahizə növbəti dəfə düzgün çıxdı. İnanıram ki, Çingiz müəllimin söylədiyi kimi, bizim atletlər London Olimpiadasında ən azı 9 medal qazanacaqlar. Əlbəttə ki, əyarı daha yüksək olan medallara sahib çıxacaqlar.

Çingiz Hüseynzadənin Azərbaycan idmanının inkişafı naminə göstərdiyi çoxşaxəli fəaliyyətini, səriştəli, peşəkar idarəetmə qabiliyyətini, yüksək mənəvi cəhətlərini işıqlandırmaq üçün bizə qəzetin təkcə bir sayı kifayət etməz. Sevindirici haldır ki, Çingiz müəllimin timsalında idman bilikləri və idarəçilik bacarığı insani keyfiyyətlərlə vəhdət təşkil edir. Bax, bu, hər şeyə dəyər!

Hörmətli professor, italyansayağı təbrikimi qəbul edin! Sizi gec də olsa, həm yubiley, həm də bu günlərdə qeyd etdiyiniz 61-ci doğum günü münasibətilə ürəkdən təbrik edirəm! Sizə həmişə belə gümrah, səmimi, sadə olmağı arzulayıram!

**Elnur ƏŞRƏFOĞLU,**
**Beynəlxalq İdman Jurnalistləri Assosiasiyasının üzvü, Olimpiya.az saytının baş direktoru**

**Ukrayna Dövlət Beynəlxalq Təhsil Mərkəzi**

Biz tam orta təhsilli Azərbaycan vətəndaşlarını Ukrayna universitetilərində təhsilə dəvət edirik.

1. T.Q.Şevşenko adına Kiyev Dövlət Universiteti.
Beynəlxalq münasibətlər, Hüquq, Jurnalistika
2. Kiyev Dövlət Aviasiya Universiteti.
Aeronaviqasiya, Hüquq, Radiotexnika
3. Donetsk Dövlət Tibb Universiteti.
Müalicə işi, Stomatologiya, Pediatriya, Farmasiya
4. Donetsk Dövlət İdarəetməçilik Universiteti.
İdarəetmə, Xarici İqtisadi əlaqələrin təşkili, Hüquq
5. Karazin adına Xarkov Dövlət Universiteti.
Pedaqogika, Hüquq, İqtisadiyyat, Turizm
6. Xarkov Dövlət Ticarət Universiteti.
Gömrük işində ekspertiza, İqtisadiyyat, Turizm
7. Odessa Dövlət Hüquq Akademiyası Hakimlik.
Prokurorluq və istintaq, Vəkillik
8. Odessa Dövlət Dəniz Universiteti.
Dənizdə yük daşıma, Naviqasiya, Hüquq
9. Mariupol Dövlət Universiteti.
Hüquq, İqtisadiyyat, Beynəlxalq əlaqələr
10. Luqansk Dövlət Aqrar Universiteti.
İqtisadiyyat, Tikinti, Aqranomluq

Əlavə məlumat üçün Ukrayna Elm və Təhsil, İdman və Gənclər Nazirliyi UDBTM-ın Azərbaycandakı nümayəndəsi Aydın Novruzova müraciət edə bilərsiniz.

**(050) 331-99-99 (055) 252-25-25**
**(077) 332-99-99 (012) 437-99-80**

**Elan**

Quba rayonu 1-ci Nügədi kəndində yerləşən Musayev Minhac Camələddin oğluna məxsus yaşayış evinin 143 nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Q□zet 1992-ci il noyabrın 17-d□n çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar □liyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet “Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: “525” şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2448
“TURAN”, “TREND”, AzərTAc, “AssA-İradə”, APA v□ “OLAYLAR”ın informasiyalarından istifad□ olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.